RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 59 (8375) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yenilik memarları, mənəviyyat mühafizləri

***Elin əziz bayramı ərəfəsindəyik. Novruz gəlir, özü ilə baharın ətrini, ən sevimli fəslimizin addım səslərini, təbiətin, torpağın oyanışının müjdəsini də gətirir. Novruz xalqımızın tarix boyu yaratdığı mənəvi dəyərlərin aynasıdır. Özümüzə, kimliyimizə aid ən gözəl nələr varsa, Novruz ənənələrində tapa bilərik.***
***O, həyat və məişətimizdə yeni bir başlanğıcdır. Təbiət qədər ruhun da təzələnməsidir, insanın özünü ruhən, mənən yeni dövrə, zəhmət mövsümünə, yeni hədəflərə kökləməsidir. Gələcəklə bağlı arzular tutmasıdır. Bütün umu-küsüləri, narahatlıqları geridə buraxıb tamamilə yeni bir həyata qədəm qoymasıdır.***

Builki Novruz bayramının xüsusi dəyəri isə onun təzələnən ruhunun, bahar ovqatının ölkənin ictimai-siyasi həyatında baş verən yenilənmə ruhu ilə üst-üstə düşməsindədir, həm də...

Aparılan köklü islahatlarla Azərbaycan tamamilə yeni bir tarixi mərhələyə qədəm qoyub. Bu ab-havanı cəmiyyət həyatının bütün sahələrində duyub hiss etmək olur. Prezident İlham Əliyev mahir strateq kimi ölkəmizin, cəmiyyətimizin bir tarixi dönəmdən yenisinə transformasiyasını uğurla reallaşdırır.

❖ ❖ ❖

Yazılarımda adətən, terminlərdən qaçmağa çalışıram, əcnəbi kəlmələrin dilimizdəki qarşılıqlarını axtarıb tapıram. Bu dəfə isə transformasiya ifadəsini özüm bilərəkdən işlətdim, onun qarşılığı kimi rahatlıqla istifadə edə biləcəyim keçid kəlməsini fikirlərimin mabədinə saxladım.

Zənnimcə, transformasiya və keçid sözlərinin hərəsi ayrı-ayrılıqda Azərbaycanın iki böyük tarixi dönəminin bələdçisidir.

Biz keçid dövrünü artıq yaşamışıq, bu mərhələni başa vurmuşuq. Mahiyyət xeyli fərqli olduğundan tarixi dövrləri bir-birindən ayırmaq üçün indiki dəyişikliklər dönəmini keçid yox, məhz transformasiya dövrü kimi səciyyələndirmək, düşünürəm ki, daha doğru olardı.

Keçid dövrü bizim müstəqillik nemətinə qovuşandan sonrakı bir neçə il ərzində sovet iqtisadiyyatı prinsiplərindən, köhnə üsuli-idarədən, əvvəlki yanaşmalardan imtina edib çox böyük çətinliklər hesabına azad bazar iqtisadiyyatı prinsiplərini formalaşdırdığımız, cəmiyyətin bu yeni prinsiplərə tədricən öyrəşdiyi, onun əhəmiyyətini anladığı, davamlı şəkildə dövlət quruculuğu proseslərinin, struktur islahatlarının aparıldığı, yeni qanunvericilik bazasının işlənib hazırlandığı çox gərgin, mürəkkəb bir dövr idi.

Ulu Öndər Heydər Əliyevin böyük dövlət adamı kimi özünəməxsus qətiyyət, yüksək səriştə və fədakar zəhmət hesabına həyata keçirdiyi bu prosesin son fazası Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə başa çatdı.

Hardasa, 2009-cu ilin sonlarında Prezidentimizin Azərbaycanda iqtisadi sahədə keçid dövrünün artıq başa çatdığını təntənə ilə elan etməsini yaxşı xatırlayırıq...

Keçid dövrü müstəqillik tarixinin aktuallaşdırdığı labüd zərurət idi. İstədik, istəmədik, o mərhələni yaşamalı idik, keçid dövrü həyatımızdan ötüb keçməli idi. O tarixi prosesin əsas məramı inkişafın özündən daha çox ölkənin, cəmiyyətin gələcək tərəqqisi üçün zəruri əsasların hazırlanması idi.

Heydər Əliyevin təməlini qoyduğu, sonrakı mərhələlərdə isə cənab İlham Əliyevin böyük əzmlə həyata keçirdiyi milli inkişaf strategiyası Azərbaycanda keçid dövrünün uğurla başa çatdırılmasını, gələcək inkişafın təməlini qoymaqla yanaşı, keçid prosesinin özündə də ölkənin misilsiz sosial-iqtisadi nailiyyətləri ilə irəli getməsini təmin etdi.

Keçid dövrünü başa çatdıranda Azərbaycan artıq inkişaf dinamikasına görə dünyanın ən qabaqcıl ölkələrindən biri idi. Regionun əsas söz sahibinə çevrilmişdi. Məşğulluq, yoxsulluq problemi kimi cəmiyyətə əziyyət verən çətinliklərin öhdəsindən gələ bilmişdi. Azərbaycan keçid dövrünün qurtaracağında əhalisinin rifah halı getdikcə yaxşılaşan, beynəlxalq aləmdə mövqeləri güclənən ölkə idi.

Transformasiya prosesi isə zamanın çağırışlarını nəzərə alaraq nail olduqlarımızla kifayətlənməyib, indikindən də yüksək inkişafa doğru yön almaqdır. Böyük strateji hədəflər müəyyənləşdirib ona doğru irəliləməkdir. Ölkənin inkişaf sürətini zamanın sürətinə uyğunlaşdırmaqdır.

Qısası, zamanla yarışa çıxmaqdır.

Azərbaycan bu gün zamanla yarışır...

Zamanla ayaqlaşır...

İlham Əliyev hər birini öz vaxtında, məqamında həyata keçirdiyi köklü islahat tədbirləri ilə zamanı qabaqlayır...

Vaxt üzərində qələbə qazanır...

❖ ❖ ❖

Həyata keçirilən islahatların mahiyyətini, məramını indi əksəriyyət anlayır.

Çünki əhali ilə sıx kommunikasiya qurulub. İslahatların məzmunu, faydaları insanlara düzgün çatdırılır.

Hamı anlayır ki, baş verənlər, aparılan dəyişikliklər vətəndaş olaraq hər birimizin xeyrimizədir.

Ona görə də indi hər kəs bu dəyişikliyin bir parçası olmağa can atır. Prosesə bacardığı köməyi göstərmək istəyir. Ən azı, aparılan dəyişikliklərlə bağlı pozitiv ictimai ruhu başqaları ilə də paylaşmağı özünə mənəvi borc bilir.

Bununla belə, dəyişikliklərin mahiyyətini doğru-dürüst dərk etməkdə çətinlik çəkən insanlarla yenə ara-sıra rastlaşırsan. Belələri o qədər çox deyil, amma heç olmamış da sayılmazlar.

Onlara elə gəlir ki, dəyişiklik vəziyyəti mürəkkəbləşdirir.

Guya, bütün bu islahatlar olmasaydı, idarəetmə prosesləri daha asan başa gələrdi. Hansısa tədbirləri planlaşdırmaq indikindən rahat olardı. Çünki sabah bu gündən elə də fərqlənməzdi. Ölkə mühitində heç bir qeyri-müəyyənlik özünü göstərməzdi. Beləliklə, müxtəlif vəziyyətləri ümumi transformasiya mühitinə uyğunlaşdırmaq ehtiyacı da yaranmazdı. Hər bir alternativ addımın nəticəsini dəqiq proqnozlaşdırmaq mümkün olduğundan qərarvermə prosesləri xeyli sadələşərdi.

Bəli, bunlar belə olardı, inkar etmirəm. Azərbaycan heç bir islahatsız, köklü dəyişiklik qərarları vermədən də yenə yoluna davam edərdi və inkişaf göstəriciləri qazanardı.

*Ardı 4-cü səh.*

# Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə həyata keçirilən sosial islahatlardan danışan **Prezident İlham ƏLİYEV** dedi:

- Sosial sahədə aparılan islahatlar bu il davam etdirilir. Bu islahatlar çox genişmiqyaslı islahatlardır və nəticə etibarilə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlardır. Xüsusilə keçən il 4 milyondan artıq Azərbaycan vətəndaşının maddi rifahı yaxşılaşdırıldı, çox böyük sosial paket icra edildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir.

Bu il bu istiqamətdə növbəti addımlar atılır və atılacaq. Pensiyaların artırılması təmin edildi. Bu, bir daha onu göstərir ki, ötən il həyata keçirilən ciddi sosial paket bizim məqsədyönlü seçimimizdir. Əminəm ki, vətəndaşlarımızın sosial vəziyyəti ildən-ilə daha da yaxşılaşdırılacaqdır. Pensiya təminatı ilə bağlı görülmüş işlər, xüsusilə bu il yanvarın 1-dən görülmüş işlər haqqında məlumat verin.

**Nazir Sahil BABAYEV:** Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Siz qeyd etdiyiniz kimi, ötən il həyata keçirilən çox geniş sosial islahatlar paketinin önəmli bir istiqaməti məhz pensiyalar idi. Ölkədə minimum pensiyanın 72 faiz artırılması nəticəsində 660 min pensiyaçımızın pensiyalarında ciddi şəkildə artım oldu və minimum pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə Azərbaycan MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq əməkhaqqı artımları ilə bağlı, xüsusi şərtlərlə pensiya alan 90 min pensiyaçımızın da pensiyaları orta hesabla 31 faiz artdı və bu da ümumilikdə ötənilki paketin 750 min insanı əhatə etməsini təmin etdi.

Digər tərəfdən, bu il sosialyönümlü islahatların davamı olaraq Sizin imzaladığınız sərəncamla bütün pensiyalar 16,6 faiz indeksləşdirildi. Bunun nəticəsində Azərbaycanda bütün pensiyalar üzrə orta aylıq pensiya 300 manatın üzərində oldu. Sırf yaşa görə pensiyanı götürdükdə isə bizim gözləntimiz orta aylıq pensiyanın 350 manata çatmasıdır. Bu da, əlbəttə ki, son 2-3 ildə Sizin rəhbərliyinizlə və təşəbbüsünüzlə aparılan genişmiqyaslı sosial islahatların nəticəsi və uğurudur.

Ümumiyyətlə, son islahatlarınızın maliyyə dəyəri 560 milyon manata bərabərdir. Yəni cari il ərzində indeksləşdirmə hesabına pensiyaçılarımıza əlavə olaraq 560 milyon manat vəsait ödəniləcəkdir. Ötənilki islahatları da nəzərə alsaq, - ümumi illik maliyyə dəyəri 450 milyon manata yaxın idi, - cəmi bir il ərzində qəbul edilmiş qərarlar nəticəsində pensiyaçılarımıza bir milyard manatdan artıq vəsait ödənilir.

*Ardı 2-ci səh.*

## B.H.Eyyubovun Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəylər Həsən oğlu Eyyubov Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2020-ci il*




# Enerjinin İpək yolu

## TANAP-ın təməlinin qoyulduğu vaxtdan 5 il keçir

2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) təməli qoyulmuşdur. Bu münasibətlə keçirilən mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın prezidentləri iştirak etmişlər.

Bu da təsadüfi deyil. Çünki Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından çıxarılan mavi yanacağı daşıyan "Cənub qaz dəhlizi"nin Avropaya yolu bu üç ölkənin ərazisindən keçir. TANAP isə həmin dəhlizi yaradan üç kəmərdən biri və ən böyüyüdür.

Kəmərin təməlinin qoyulması uzunmüddətli danışıqlardan konkret işlərə keçmək demək idi. Axı TANAP-ın salnaməsi hələ bu hadisədən xeyli əvvəl başlanmışdı. 2012-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş Naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda TANAP üzrə hökumətlərarası saziş imzalamışdılar.

*Ardı 4-cü səh.*

# Yeni parlament dövlət quruculuğu prosesində yeni vəzifələr müəyyənləşdirir

VI çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyevin etdiyi çıxış Azərbaycanda, region ölkələrində və bütövlükdə dünyada gedən siyasi, iqtisadi və mənəvi proseslərə verdiyi qiymət baxımından tarixi xarakter daşıyırdı. Bu çıxışla cənab Prezident dövlətimizin yaxın və uzaq gələcəkdə Fəaliyyət Proqramının konturlarını ortaya qoydu.



Cənab Prezident beşinci çağırış Milli Məclisin ölkəmizin uğurlu inkişafı istiqamətində rolunu qiymətləndirməklə yanaşı, parlamentə növbədənkənar seçkilərin aparılan islahatları dərinləşdirmək ehtiyacından irəli gəldiyini söylədi. O, islahatların cəmiyyətimizdə yaratdığı demokratiya ab-havasının bir daha seçki prosesində də özünü göstərdiyini diqqətə çatdırdı. Buna əyani sübut kimi, əhalinin seçkilərə heç vaxt olmadığı qədər marağını, 1300 nəfərin namizədliyini irəli sürməsini göstərdi: "Bütün namizədlər üçün bərabər şərait yaradılmışdı, ayrı-seçkiliyə yol verilməmişdi".

Dövlət başçısı ədalət naminə onu da vurğuladı ki, bütün dünyada seçkilər tam ideal keçirilmişdi. Ən demokratik ölkələrdə belə qüsurlar labüddür. Əsas odur ki, məsul orqanlar seçki prosesinə nəzarət edir, xalqın verdiyi namizədlərin hüquqlarının qorunması naminə operativ tədbirlər görür. Ölkəmizdə 4 seçki dairəsinin, onlarla məntəqənin nəticələrinin ləğv edilməsi buna nümunədir. Seçkilərin nəticələrinə uyğun Azərbaycanda çoxpartiyalı parlamentin formalaşması da demokratiyanın inkişafında irəliyə doğru mühüm addım oldu.

Hörmətli Prezident parlamentin yeni heyətinə taleyüklü tövsiyələr verdi. Onları qanunvericilik bazası hazırlayarkən kəmiyyət ardınca qaçmamağa, keyfiyyət məsələsini ön planda tutmağa səslədi: "Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil". Cənab İlham Əliyev bu iradı ilə deputatları ölkədə gedən proseslərdə fəal iştirak etməyə, seçildiyi dairələrin əhalisinin problemlərini öyrənməyə, icra orqanları qarşısında qaldırmağa səslədi.

*Ardı 3-cü səh.*



# Sosial izolyasiya qaydaları vətəndaşların təhlükəsizliyinə xidmət edir

## Həyata keçirilən qabaqlayıcı tədbirlər koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını alacaq

**Son statistikaya əsasən, koronavirus (COVID-19) infeksiyası 157 ölkəyə yayılıb. Dünya üzrə koronavirusa 170 minə yaxın insan yoluxub.**

Onlardan 6500 nəfərdən çoxu vəfat edib. Xəstəlik Çində başlasa da, hazırda Avropa dünyada koronavirus pandemiyasının ən ağır şəkildə təzahür etdiyi regiondur. Belə ki, son həftələrdə Avropada Çin istisna olmaqla, dünyanın bütün digər ölkələrindən daha çox yoluxma və ölüm halı qeydə alınıb.

*Ardı 6-cı səh.*

# Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır

*Əvvəli 1-ci səh.*

Bu vəsait də tam şəkildə Dövlət Sosial Müdafiə Fondu tərəfindən qarşılanır və dövlət büdcəsi üçün əlavə yük yaratmır.

Aparılan islahatların nəticəsində Dövlət Sosial Müdafiə Fondunun özündə də ciddi sağlamlaşma təmin olundu. İlk dəfə olaraq dövlət öhdəlikləri hesabına maliyyələşən pensiyalar üçün ayrılmış vəsaitin 320 milyon manatı dövlət büdcəsinə geri qaytarıldı - 150 milyon manatı büdcə paketinin dürüstləşməsi çərçivəsində ilin ortasında, 170 milyon manatı isə ilin sonunda. Əsassız və saxta təyinatların ləğvi nəticəsində əlavə olaraq 200 milyon manat qənaət əldə edildi ki, bu da cari ildəki pensiya islahatlarına yönəldilməsi üçün Dövlət Sosial Müdafiə Fondunun ehtiyatlarında qaldı. Yəni, ümumilikdə, 520 milyon manat fərq meydana çıxdı ki, bu da pensiya sisteminin sağlamlaşması nöqteyi-nəzərindən çox önəmlidir. Bir vacib indikator da odur ki, dövlət öhdəliklərinin maliyyələşməsi üçün dövlət büdcəsindən Pensiya Fonduna ayrılan vəsait onun gəlirlərində əgər 2017-ci ilin sonunda 38 faiz təşkil edirdisə, artıq 2020-ci ildə bu 29 faizə düşübdür. Beləliklə, Pensiya Fondunun müstəqilləşməsi ilə büdcə asılılığının azaldılması istiqamətində ciddi irəliləyiş əldə edilibdir.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı göstəricilərdir və bu işlər davam etdirilməlidir. Pensiya təminatının alıcılıq qabiliyyətinə görə Azərbaycanın MDB məkanında birinci yerdə olması hesab edirəm ki, böyük nailiyyətdir. Əlbəttə, iqtisadi imkanlarımız genişləndikcə biz bu vəsaiti ilk növbədə sosial məsələlərin həllinə yönəldəcəyik.

Ünvanlı sosial yardımla bağlı sizə göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında, - qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır, - yeni iş yerləri yaradılır, vətəndaşlar üçün yeni imkanlar açılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyacı olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın. Bu sahədə dinamika necədir və mənim göstərişim necə icra olunur?

**Sahil BABAYEV:** Cənab Prezident, Sizin bu növbəti təşəbbüsünüzə uyğun olaraq biz ünvanlı sosial yardım mexanizmini ötən il ərzində ciddi şəkildə genişləndirdik. Əgər 2019-cu ilin əvvəlində 40 min ailə bu proqramdan yararlanırdısa, ilin sonunda artıq ailələrin sayı 72 min oldu. Yəni bir il ərzində çox ciddi şəkildə, təqribən 60-70 faizlik bir artım əldə edildi. Digər tərəfdən, bu il üçün dövlət büdcəsindən ayrılmış vəsait çərçivəsində 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılır. Bu da ünvanlı sosial yardım proqramının əlavə olaraq daha 20 faiz genişləndirilməsi deməkdir. Bununla bərabər, kriteriyaların yumşaldılması və bu istiqamətdə əhaliyə dəstək verilməsi barədə Sizin tapşırığınız olmuşdu. Artıq ötən il bir sıra istiqamətlərdə addımlar atıldı, torpaq pay mülkiyyəti ilə bağlı yüngülləşmələr tətbiq olundu, sırf o islahatın nəticəsində əlavə 7 min ailə ünvanlı sosial yardım proqramına daxil ola bildi. Bu il üçün də kommunal xərclərin limitinin artırılmasına dair təkliflər hazırlanmışdır və hökumət tərəfindən müzakirə olunur. Yeni parlament tərəfindən qanunvericiliyə edilən dəyişikliklərlə biz 85-90 min ailənin məhz ünvanlı sosial yardım proqramı ilə əhatə olunmasını təmin edəcəyik.

Paralel olaraq, ehtiyac meyarının bir il ərzində ciddi şəkildə - 10 faizdən çox artırılması, 143 manatdan 160 manata çatdırılması imkan verdi ki, ünvanlı sosial yardımın məbləği də artsın. Əgər 2018-ci ildə ünvanlı sosial yardımın məbləği 160 manat idisə, ötən il 200 manata çatdı. Bu il üçün proqnozlarımıza əsasən, bu rəqəm 215-220 manat arasında olacaq. Deməli, hər ay ünvanlı sosial yardım alanlar bu qədər vəsaitlə təmin olunacaqlar.

**Prezident İlham ƏLİYEV:** Bu, hər ailənin büdcəsinə böyük töhfədir. Hər ailə dövlətdən 215 manat alacaqsa, əlbəttə ki, bu ailələrin sosial təminatı daha da yaxşı olacaq.

İlin əvvəlində mən göstəriş vermişdim ki, bu il şəhid ailələri və müharibə veteranları üçün daha çox sayda evlər tikilsin. Biz bu vətəndaşların sosial təminatını ildən-ilə yaxşılaşdırırıq. Keçən il 934 ailəyə ev verilib. Mən göstəriş vermişdim ki, biz bu həcmi artıraq və bu il 1500 ailə üçün evlərin təqdimatı nəzərdə tutulur. Bu istiqamətdə işlər nə yerdədir və iki ay ərzində hansı işlər görülüb?

**Sahil BABAYEV:** Cənab Prezident, çox düz buyurursunuz. Ötən il 934 mənzil və fərdi ev təqdim olundu. Onların 300-ü fərdi evlər, 634-ü mənzillər idi. Biz bu proqramla respublikanın 25 rayonunu əhatə etmişik. Sizin tapşırıqlarınıza uyğun olaraq bu proqram cari ildə daha da genişləndirilib - 1500 mənzili və fərdi evi əhatə edib. Proqram 52 rayonumuz əhatə olunmaqla 700 mənzili və 800 fərdi evi nəzərdə tutur. Artıq bütün inventarlaşma işləri yekunlaşdırılıb, müvafiq satınalmalar elan edilib. Bu il Gəncə istisna olmaqla, respublikanın əsas şəhərlərində növbədə olan bütün insanlar mənzil və evlə təmin ediləcəklər. Gəncədə 170 nəfər növbədədir, onların da 100 nəfərinə bu il evlər, mənzillər təqdim olunacaq. Fərdi evlər proqramı çərçivəsində 52 rayon üzrə 800 fərdi ev şəhid ailələrinə və müharibə əlillərinə təqdim olunacaq. Builki proqramın icrası nəticəsində 2014-cü ilə qədər növbəyə duran insanların sayı 1500-ə düşəcək. Bununla bağlı da Sizin tapşırıqlarınız olub ki, onları da sürətlə yekunlaşdıraq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı, bu sürətlə getsək, həmin kateqoriyadan olan və növbədə duran bütün vətəndaşları biz 2021-2022-ci illərdə evlərlə, mənzillərlə təmin edəcəyik.

Özünüməşğulluq proqramı ilə bağlı hansı işlər görülür? Mən göstəriş vermişəm ki, bu proqramın əhatə dairəsi genişləndirilsin. Eyni zamanda biz Dünya Bankını bu məsələyə cəlb etdik. Mənim Dünya Bankının icraçı direktoru ilə Davosda keçirdiyim görüşdə bu məsələ müzakirə olundu. Dünya Bankı bizə həm maliyyə dəstəyi göstərəcəkdir, eyni zamanda məsləhət xidmətlərini təmin edəcəkdir.

Siz mənə məruzə etmişdiniz ki, tələbat kifayət qədər böyükdür. Təqribən 50 minə yaxın müraciət olubdur. Mən göstəriş vermişdim ki, bu il ən azı 10 min insan bu proqramla əhatə olunsun. Proqramla əhatə olunma istiqamətində, əlbəttə ki, nazirlik tərəfindən meyarlar işlənilib, təmin edilib, vətəndaşlar treninqlərdən keçiblər. Ancaq əsas məsələ ondadır ki, vətəndaşları bu işə cəlb edəndən sonra özünüməşğulluqla bağlı monitorinq keçirilsin. Çünki dünya praktikasında özünüməşğulluq proqramı ilə əhatə olunan cəmi vətəndaşların təqribən 50 faizi bu imkandan səmərəli şəkildə istifadə edə bilir. Məsələn, elə hallar var ki, rayon və kənd yerlərində malqara ilə təmin olunan vətəndaşların bəziləri o mal-qaranı aparıb bazarda satır və beləliklə məsuliyyətsizlik göstərirlər. Halbuki bu işdə əsas məqsəd ondan ibarətdir ki, vətəndaşlar verilən vasitələrlə öz dolanışıqlarını sonra özləri təmin etsinlər. Əgər vətəndaşlar dövlət tərəfindən verilən vəsaitə belə yanaşacaqlarsa, bu, dözülməzdir. Bu vətəndaşlara ikinci dəfə heç bir dəstək göstərilməməlidir, o cümlədən onlar ünvanlı sosial yardımdan da məhrum edilməlidir. Ona görə ki, dövlət öz xoş niyyətini göstərir. Ancaq vətəndaşlar da buna məsuliyyətlə yanaşmalıdırlar. Özünüməşğulluq proqramı ilə əhatə olunmaq istəyənlərin sayı kifayət qədər çoxdur və kriteriyalar əsasında onların arasında seçim edilir. Əgər bu proqrama düşən vətəndaşlar özlərini belə aparacaqlarsa, əlbəttə ki, çox ciddi tədbirlər görülməlidir. Bu il bu istiqamətdə hansı işlər görülüb və ilin sonuna qədər hansı işlər görüləcəkdir?

**Sahil BABAYEV:** Möhtərəm cənab Prezident, özünüməşğulluq proqramı həqiqətən də əhalidə çox böyük maraq oyadıbdır. Məşğulluq proqramında iştirak etmək niyyəti olan insanlar çoxdur. Siz rəqəmi qeyd etdiniz, 50 minə yaxın müraciət var. Ona görə də biz orada prioritetləşməni bu şəkildə qoyduq ki, əlilliyi olan şəxslər, şəhid ailələri, məcburi köçkünlər, ailəsində şəhid və əlil olan insanlara üstünlük verək. Əgər 2017-ci ildə bu proqram 1500 ailəni əhatə etmişdisə, 2018-ci ildə 7 min, 2019-cu ildə 10 min ailəni əhatə etdi. Bu il üçün biz 11 mini hədəf müəyyən etmişik.

Biz proqrama beynəlxalq təşkilatları da cəlb etmişik. Sizin müvafiq görüşünüzdən və tapşırığınızdan sonra Dünya Bankı ilə aparılan müzakirələr uğurla başa çatdı. Müqavilə layihəsi artıq yekun olaraq razılaşdırılıb və martın sonunda Dünya Bankının Direktorlar Şurasının təsdiqinə təqdim ediləcəkdir. Biz Dünya Bankının prosedurlarını nəzərə alaraq düşünürük ki, müqavilə may, yaxud iyun ayına qədər imzalanacaq. Lakin buna baxmayaraq, biz hazırlıq işlərini davam etdiririk. Artıq layihə icra qrupu da formalaşdırılıb və hazırlıq tədbirlərinə tam şəkildə başlanılıbdır. Bu il Dünya Bankının layihəsi çərçivəsində ən azı min ailənin maliyyələşdirilməsini planlaşdırırıq. Növbəti ildən artıq 5 min ailə Dünya Bankının layihəsi ilə maliyyələşəcəkdir.

Biz BMT-nin İnkişaf Proqramı ilə 500 ailənin özünüməşğulluğunun təşkil edilməsi üzərində iş aparırıq. Artıq onlar bütün təlimləri keçiblər, bu ildən aktivlərlə təmin olunacaqlar. BMT-nin İnkişaf Proqramının verdiyi yeni təcrübəni, yeni yanaşmanı biz digər layihələrimizdə də tətbiq edəcəyik. Paralel olaraq, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə biz "Sosial bağlar" layihəsi çərçivəsində hər il 250 ailəni də özünüməşğulluq proqramı vasitəsilə maliyyələşdiririk. Hər il 250 ailə üçün təqribən bir hektar ərazidə bağ salınıb ki, onların da davamlı gəlirliliyi təmin olunsun.

Əlbəttə, bu proqramın icrasının ən önəmli istiqaməti onun davamlılığı və səmərəliliyidir. Biz bununla bağlı monitorinq proqramını müəyyən etmişik. Hər rüb monitorinqlər keçirilir. İlk ilinin tamamından sonra biz monitorinqləri daha aktiv həyata keçirməyə çalışırıq. Çünki birinci ilin monitorinqləri çox yüksək - 85-90 faizin üzərində nəticələr göstərir. Amma səmərəliliyin daha düzgün, daha real qiymətləndirilməsi üçün ikinci ilin monitorinqləri önəm kəsb edir. Biz ictimai şəffaflığın təmin olunması üçün də müvafiq elektron portal yaratdıq. Hər bir insanın aldığı aktivlə birlikdə videoçəkilişi, fotoçəkilişi və aldığı aktivin keyfiyyətinə dair sənədlər orada açıqlanır. Hər bir monitorinqin nəticəsinə dair videolar da oraya qoyulacaqdır və orada açıqlanacaqdır. Əlbəttə, bu aktivlərlə bağlı adekvat addım atmayan insanlar haqqında müvafiq tədbirlər də görüləcəkdir.

Özünüməşğulluq proqramının dayanıqlılığının gücləndirilməsi üçün növbəti addım onun istiqamətlər üzrə bölgüsünün daha da təkmilləşdirilməsi idi. Çünki birinci ildə böyük istək məhz kənd təsərrüfatına, heyvandarlığa idisə, - bizim portfelimizin 82 faizi kənd təsərrüfatına aid idi, - artıq cari ildə bu, 67 faizə düşür. İndi istehsalat və xidmət sahələri də bu işə fəal qoşulmağa başlayıbdır. Bu da şəhər ərazilərində əhalinin özünüməşğulluğu, kiçik və mikrobiznesin inkişafı baxımından çox önəmlidir.

Çox gözəl uğur hekayələrimiz də var. Məsələn, 2018-ci ildə yaradılmış bir keçi ferması artıq çox genişlənib, əlavə on nəfər işçisi də var. Kiçik şirniyyat sexləri var ki, ciddi şəkildə genişlənib. Yəni uğur hekayələrimiz də var. Amma qeyd etdiyiniz kimi, uğursuz hallar da, sui-istifadə halları da var ki, onlara qarşı mübarizə aparılacaqdır.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Biz bu işləri elə təşkil etməliyik ki, səmərəlilik əmsalı ən yüksək həddə çatsın.

Qeyri-formal məşğulluqla bağlı mənim müvafiq göstərişlərim yerinə yetirilir. Mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məruzələr edilir. Mənə verilən məlumata görə, son müddət ərzində 300 mindən çox işçi ilə əmək müqaviləsi bağlanmışdır. Yəni bu işlər rəsmiləşdirilmişdir. Burada, əlbəttə ki, çox ciddi monitorinq tədbirləri keçirilməlidir. Bu, məsələ ilə bağlı sizə müvafiq göstərişlər verilmişdir. Eyni zamanda sistem xarakterli, institusional tədbirlər də nəzərdə tutulur ki, qeyri-rəsmi məşğulluğun əhatə dairəsi daralsın. Əlbəttə ki, burada maarifləndirmə də xüsusi rol oynayır. Mən də bir neçə dəfə vətəndaşlara müraciət edərək demişdim ki, əgər hansısa sahibkar onlara bu formada işləmək təklif edirsə, buna razı olmasınlar, dərhal müvafiq yerli və mərkəzi icra orqanlarını məlumatlandırsınlar. Çünki əgər qeyri-rəsmi işləyəcəklərsə, sabah onların nə pensiyası, nə də sosial sığortası olacaq, xüsusilə nəzərə alsaq ki, bu ildən başlayaraq ölkə ərazisində icbari tibbi sığorta sistemi mərhələli şəkildə tətbiq olunur. Mənə verilən məlumata görə, həm pilot şəhərlərdə, həm də bu il başlanmış bu işə əhali tərəfindən çox böyük dəstək, böyük maraq var. Ona görə belə təkliflərdən vətəndaşlar özləri imtina etməlidirlər. Amma bəzi hallarda çarəsiz qalırlar. Bəzi hallarda məcbur olub sahibkarların qanunsuz təkliflərinə razılıq verir, qeyri-formal işləyirlər.

Ona görə maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Rəsmiyyətə düşməyən işçiləri işlədən sahibkarlara qarşı ciddi sanksiyalar, cərimələr tətbiq edilməlidir. Eyni zamanda göstəriş vermişəm ki, Azərbaycanda heç kim səkkiz saatdan çox işləməməlidir. Çünki insanları istismar edirlər. Onlar da çarəsiz qalıb, məcbur olub buna razılıq verirlər. Ona görə vətəndaşlarla nazirlik arasında çox fəal canlı bağlantı olmalıdır. Siz həm öz imkanlarınızdan istifadə edərək monitorinqlər aparmalısınız, eyni zamanda qaynar xətlər, yaxud da digər əlaqə vasitələrilə vətəndaşlarla daim təmasda olmalısınız. Bilirəm ki, bu istiqamətdə işlər aparılır. Bilmək istərdim ki, o işlər nə yerdədir?

**Sahil BABAYEV:** Cənab Prezident, qeyri-formal məşğulluqla mübarizə fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Sizin təsdiq etdiyiniz müxtəlif fərman və sərəncamlar çərçivəsində qeyri-formal məşğulluğun azaldılması üçün ən ciddi stimullar yaradılıb. Məsələn, vergi güzəştləri tətbiq olunub, eyni zamanda inzibati tədbirlər gücləndirilib. Bu tədbirlərin müsbət dinamikası ötən il çox ciddi şəkildə özünü göstərdi. Təkcə bir il ərzində özəl sektorda əmək müqavilələrinin sayı 100 min artdı. Həmçinin dövlət sektorunda əlavə olaraq 53 min artım oldu. Bu çox ciddi tədbirlər nəticəsində əməkhaqqı fondu birbaşa 42 faiz artdı. Bu, əməkhaqqı fondunda 42 faiz leqallaşma deməkdir. Bu, həm iqtisadiyyata, həm pensiya-sosial təminatına, həm də kölgə iqtisadiyyatının azaldılmasına ciddi dəstəkdir. Bu müsbət dinamika davam edir. Mən bu günə olan statistikaya əsasən deyə bilərəm ki, yanvarın 1-i ilə bu gün arasında əmək müqavilələrinin sayında 19 min 400 artım var.

**Prezident İlham ƏLİYEV:** Əlavə?

**Sahil BABAYEV:** Bəli, əlavə olaraq. Əməkhaqqı fondunda da 5 faizlik artım var. Cənab Prezident, özəl sektorda bu müsbət dinamika davam etdiyi təqdirdə bunun həm iqtisadi səmərəsi çox geniş olacaqdır, eyni zamanda da vətəndaşların sosial təminatı güclənəcəkdir.

Bu istiqamətdə təbliğatla bağlı çoxsaylı videoçarxlar çəkilib, çoxsaylı press-relizlər təqdim olunub. Şəhərin müxtəlif yerlərində bannerlər yerləşdirilib. Ötən il 50-dən artıq tədbir keçirilib, builki proqramımızda isə 100-dən çox tədbirin təşkili nəzərdə tutulur. Müxtəlif rayonlardan, regionlardan işəgötürənlər, həmkarlar ittifaqlarının nümayəndələri dəvət olunaraq onlarla ciddi təbliğat işləri aparılacaq. Paralel olaraq "Çağrı" mərkəzimiz tam gücü ilə işləyir. Ötən il 280 min müraciət qəbul etmişik. Ehtimal edirik ki, bu il bizim "Çağrı" mərkəzimiz 400 mindən çox müraciət qəbul edəcək. Biz müraciət və şikayətlərə ilk növbədə ətraflı izahat veririk. Pozuntularla bağlı işəgötürənlərə xəbərdarlıqlar göndəririk. Xəbərdarlıqlara riayət etməyənlərə cərimələr tətbiq edirik.

Cənab Prezident, məruzə edim ki, Sizin müvafiq fərman və sərəncamlarınızla minimum əməkhaqqı artdıqdan sonra bir ay ərzində təqribən 300 mindən çox şəxsin əməkhaqqı hələ də əvvəlki kimi qalmışdı. Onlarla ciddi təbliğat işləri apardıq, elektron xəbərdarlıq göndərdik, cərimələr barədə məlumat verdik. Nəticədə qısa müddət ərzində 300 min rəqəmi 50 mindən aşağı düşdü. Beləliklə, 250 min insanın əmək müqavilələrində müvafiq düzəlişlər edildi. Bu işlər mütəmadi və davamlı olaraq aparılacaq. Əlbəttə, xəbərdarlıqlara məhəl qoymayan, bildirişləri nəzərə almayan işəgötürənlərlə bağlı ciddi tədbirlər görüləcək.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bundan sonra da bu məsələyə xüsusi diqqət göstəriləcək. Elə etməliyik ki, bizim bu təşəbbüsümüz maksimum dərəcədə reallaşsın və qeyri-formal məşğulluq ən aşağı səviyyəyə düşsün. Hesab edirəm ki, kompleks tədbirlər nəticəsində biz buna nail olacağıq.

Bu il də DOST mərkəzlərinin tikilməsi nəzərdə tutulur. Keçən il biz iki mərkəzin açılışını etdik. Mən şəxsən açılışlarda iştirak etmişəm. Bu mərkəzlərdən biri keçən ilin may ayından fəaliyyətdədir, nə qədər müraciət olub? Bəyənmə əmsalı hansı səviyyədədir? Bu il neçə mərkəzin və nə vaxt tikilməsi nəzərdə tutulur? Məlumat verin.

**Sahil BABAYEV:** Cənab Prezident, may ayından etibarən fəaliyyət göstərən birinci mərkəzimiz və dekabrdan etibarən fəaliyyət göstərən ikinci mərkəzimiz üzrə bu günədək birlikdə 81 min müraciət qəbul edilib. Vətəndaşların məmnunluq səviyyəsi 95,8 faizdir. Sizin müvafiq fərman və sərəncamlarınızla yaradılmış DOST Agentliyi - DOST mexanizmi öz uğurunu təsdiq edir. Vətəndaşlar bu mexanizmdən çox razıdırlar. Hər bir rayondan bizə müraciətlər gəlir ki, bu şəbəkə sürətli şəkildə genişləndirilsin. Sizin dəstəyinizlə artıq 8 yeni mərkəz üzərində iş aparılır. Onlardan biri yaxın günlərdə açılış üçün hazır olacaqdır. Bu 8 mərkəzdən ikisi Bakıda, digərləri Abşeronda, Sumqayıtda, Qubada, Bərdədə, Şəkidə və Sabirabadda yaradılacaq. Regional DOST mərkəzlərində əlavə olaraq peşə hazırlığı mərkəzi komplekslərinin də yaradılması nəzərdə tutulur. Bu mərkəzlərdə müraciət edən işsiz və işaxtaran vətəndaşlarımızın peşə hazırlığı təmin olunacaq. DOST mərkəzi fəaliyyətə 90 xidmətlə başlamışdı. Sizin dəstəyinizlə xidmətlərin sayı əvvəlcə 126-ya, sonra isə 132-yə qədər artdı. Biz düşünürük ki, yeni məşğulluq xidmətləri də buraya əlavə edildikcə, bu mexanizm təkcə sosial təminat yönümlü deyil, eyni zamanda məşğulluq və əmək münasibətləri baxımından da geniş nəticə əldə edəcəkdir. "Çağrı" mərkəzi də DOST mərkəzlərinə inteqrasiya olundu. Ona görə də orada bizim ciddi şəkildə artımımız meydana çıxdı və qısa müddət ərzində artıq Azərbaycanda ən çox istifadə olunan "Çağrı" mərkəzlərindən birinə çevrildi.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bu proqram doğrudan da bu sahədə dönüş nöqtəsi oldu. Hesab edirəm ki, bu sahədə göstərilən xidmətlərin təkmilləşdirilməsi inqilabi xarakter daşıyır. Təbii ki, vətəndaşların məmnunluğu da yüksək səviyyədədir. Ona görə mən soruşdum ki, bəyənmə əmsalı hansı səviyyədədir - 95 faiz, əlbəttə ki, yeni yaradılmış xidmət üçün çox yüksək nəticədir. Hesab edirəm ki, gələcəkdə bu mərkəzlərin həm regional xarakter daşıması, eyni zamanda funksiyaların, xidmətlərin artırılması, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsi, səmərəsi daha da yüksələcək. Beləliklə, Azərbaycan bu sahədə də öz intellektual məhsulu ilə fərqlənəcək. Necə ki, bu gün "ASAN xidmət" mərkəzləri bizim intellektual brendimizdir və artıq digər ölkələr bu təcrübədən yararlanırlar, hesab edirəm ki, vaxt gələcək digər ölkələr də DOST mərkəzlərində göstərilən xidmətləri əsas götürərək belə sistemin yaradılmasına nail olacaqlar. Biz də istənilən tərəfdaşla bu istiqamətdə işləməyə hazırıq. Əgər sizə bu məsələ ilə bağlı hansı ölkələrdən müraciət olunarsa, əlbəttə ki, məsləhətləşmə əsasında müvafiq məlumatları verə bilərsiniz.

Bir məsələ də çox ciddi xarakter daşıyır. Neftin qiymətinin kəskin düşməsi nəticəsində təbii ki, biz dövlət investisiyalarını kəskin ixtisar etdik. Bunun nəticəsində işsizliyin səviyyəsi artmışdır. Bu da təbiidir. Çünki işsizliyi aşağı səviyyədə saxlamaq üçün dövlət bütün mexanizmlərdən istifadə edir. Əgər biz görsək ki, özəl sektorda haradasa işlər ixtisar olunur, əlbəttə, mənim göstərişimlə dövlət dərhal öz sözünü deməlidir. 2015-2016-cı illərdən başlayaraq mənim tapşırığımla ödənişli ictimai işlər yaradılmışdır. Bu işlərin yaradılmasının əsas səbəbi işsiz qalan vətəndaşları işlə təmin etməkdir. Mənim göstərişimlə bu proqramla əhatə olunan vətəndaşların sayı ildən-ilə artaraq, son məlumata görə, 38 min ödənişli iş yeri yaradılmalı idi. Bu məqsədlər üçün dövlət büdcəsində 10 milyonlarla manat vəsait nəzərdə tutulur. Göstəriş vermişdim ki, bu məsələyə çox ciddi nəzarət olunsun. Xüsusilə bölgələrdən gələn siqnallar bu nəzarətin tətbiqinə, əlbəttə ki, imkan yaratmışdı. Çünki bəzi hallarda insanların əməkhaqları verilmirdi, ödəniş kartları icra başçıları tərəfindən qanunsuz olaraq götürülürdü, mənimsənilirdi və s. Belə siqnallar ciddi şəkildə araşdırılmışdır. Bu və buna oxşar cinayətləri törədənlərə qarşı çox ciddi cəza tədbirləri tətbiq edildi. Mən bütün yerli icra orqanlarının nümayəndələrinə xəbərdarlıq etmişdim. İndi isə onların bir neçəsi məsuliyyətə cəlb edildi. Keçirilmiş xüsusi əməliyyatlar nəticəsində onların cinayətləri tam sübuta yetirildi. Əlbəttə ki, indi istintaq gedir, məhkəmə prosesi olacaqdır, ancaq videogörüntülər hər şeyi açıq-aydın göstərir. Bu biabırçı kadrlar, biabırçı davranış bizim üçün böyük ləkədir. Mən bu adamlara etibar etmişəm. Mən bu adamları vəzifəyə təyin etmişəm və vəzifəyə təyin edilərkən bir çox tapşırıqlar, tövsiyələr vermişəm. Onların arasında ən vacibi o idi ki, get təmiz işlə, rüşvət alma, vətəndaşlara kobudluq göstərmə, təkəbbürlü olma, vətəndaşlara dayaq ol, arxa ol, kəndləri gəz, bütün vətəndaşlarla ünsiyyətdə ol. Amma nəyi görürük? Onu görürük ki, bütün bu tapşırıqlara rəğmən, bəzi yaramaz icra başçıları həm özlərini, həm bizim iqtidarımızı biabır ediblər. Onların alçaq hərəkətləri ümumi qınaq obyektinə çevrilib. Onların dövlət mülkiyyətini talaması, sahibkarları incitməsi, sahibkarlardan pul alması, hər bir təyinata görə pul alması, məktəb direktorlarından, xəstəxanalardan aylıq haqq alması allahsızlıqdır və onlar bu cinayətlərə görə cavab verəcəklər. Biz işsiz qalan vətəndaşlar üçün şərait yaradırıq ki, onlar evinə çörək pulu aparsın. O da böyük məbləğ deyil, minimum əməkhaqqı səviyyəsindədir. İndi minimum əməkhaqqı artıb, ona görə bu vətəndaşlar daha böyük məbləğ alırlar. Amma bəzi hallarda bu pullar mənimsənilir. Yaxud da Neftçala rayonundakı cinayətkarlıq hadisəsi barədə mənə məlumat verildi ki, ödənişli işlə təmin edilən 73 nəfəri öz təsərrüfatlarında qul kimi, nökər kimi işlədirdi. Bu, nədir? Ağadır, bəydir, xandır? İndi bütün ölkə ona nifrət edir, onun və onun kimilərin biabırçı hərəkətlərinə görə. Hamı bilsin ki, məsələ bununla bitməyəcək. Birinci hadisə oldu eşitmədilər, ikinci hadisə oldu eşitmədilər. Neçəsi həbs olunmalıdır ki, bunlar öz çirkin əməllərindən əl çəksinlər. Bu proses davam etdiriləcək və hamı üçün də dərs olmalıdır. Ona görə bu biabırçı hallarla bağlı daha ciddi addımlar atılacaq.

Mən sizə göstəriş vermişdim ki, sizin nazirlik çox ciddi monitorinq, uçot aparsın. Onu da bilirəm ki, siz bu uçotu tətbiq etməyə başlayanda yerli icra orqanları tərəfindən böyük müqavimətlə rastlaşdınız. Sizə qarşı təxribatlar törədildi, eyni zamanda mətbuatda çirkin kampaniyalar aparıldı. Biz bu kampaniyanın sifarişçilərini də yaxşı tanıyırıq. Onların bizim aramızda yeri yoxdur. Ona görə nazirlik tərəfindən bütün bu işlər tam nəzarətə götürülməlidir. Hazırda vəziyyət nə yerdədir, bu il neçə min vətəndaş bu işlərlə təmin edilib və nəzarət mexanizmi nədən ibarətdir?

**Sahil BABAYEV:** Möhtərəm cənab Prezident. Siz çox doğru buyurdunuz, 38 min nəfərin işlə təmin olunması həm işsizlik, həm də məşğulluq baxımından insanlarımız üçün böyük dəstəkdir. Eyni zamanda regionlarımızda əlavə işçi qüvvəsi resurslarının cəlb edilməsi də bir çox mövcud problemlərin həllinə dəstəkdir. Bununla bağlı yaradılmış DOST iş mərkəzi vasitəsilə ötən il 38 min işçi cəlb edildi.

Sizin tapşırığınızla biz monitorinqləri tətbiq etdik. Monitorinqlər nəticəsində, ümumilikdə, il ərzində 9 min kənarlaşma müəyyən edildi. Bununla bağlı biz həm yerli icra hakimiyyətlərinə, həm də aidiyyəti strukturlara məlumat verərək onları kənarlaşdırdıq. Ümumiyyətlə, 38 min əvəzinə 47 min təyinat oldu. Düzdür, bunlardan bir qismi müəyyən obyektiv səbəblərdən, - vətəndaş başqa iş tapıb, oraya müraciət edirdi, - amma böyük əksəriyyəti məhz monitorinqlər nəticəsində kənarlaşmaların müəyyən edilməsi ilə bağlıdır. Bundan əlavə, ictimai şəffaflığın təmin edilməsi üçün hər rayon üzrə ictimai işlərə cəlb edilmiş şəxslərin adlı siyahısı internet portalına yerləşdirilib. Biz dəfələrlə həm mətbuata, həm də vətəndaşlara müraciət etmişik ki, burada ictimai şəffaflıq və ictimai nəzarət tam təmin edilir. İstənilən mənfi fakt haqqında bizə məlumat versinlər və onların əsasında da bu işlər davam etdirilsin. Sizin tərəfinizdən atılan qətiyyətli addımlardan sonra xeyli irəliləyiş var. Bir çox istiqamətlərdə həqiqətən də biz dinamikanın çox müsbət olduğunu görürük. Bəzi hallarda təmizləmə prosesi müəyyən qədər çətinliklə, lakin tam şəkildə gedir. Eyni zamanda biz vətəndaşların kənarda qalmaması üçün də davamlılığı təmin etməyə çalışdıq. Çünki 38 min şəxsin dekabr ayında işdən azad olunması, yanvar ayında təkrar 38 min əmək müqaviləsinin imzalanması kifayət qədər vaxt apara, onların əməkhaqqını bir ay itirməsinə səbəb ola bilərdi. Ona görə davamlılığı təmin etdik. Mən xüsusi vurğulamaq istərdim ki, təyin etdiyiniz bir çox yeni icra başçıları tərəfindən ciddi monitorinq və inventarlaşdırma aparılıb. Bizə təqdim olunan siyahılardan haqsız şərtlər çıxarılıb.

## İrlandiyanın Prezidenti zati-aliləri cənab Maykl Higginsə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müqəddəs Patrik Günü münasibətilə Sizi və İrlandiya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə cansağlığı, uğurlar, xalqınıza rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

## Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cəlilabad rayonunun əhalisi 63410 nəfər olan 6 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 12 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 840,0 (səkkiz yüz qırx) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2020-ci il*

## Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 31-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilsin.

2. Ləğv edilmiş Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin əsasında aşağıdakı dövlət orqanları yaradılsın:

2.1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;

2.2. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;

2.3. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

3. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi müvafiq olaraq əsasnamələrinin, strukturlarının və ali zabit heyəti vəzifələrinin siyahılarının layihələrini, habelə hərbi qulluqçuları və işçilərinin say həddi barədə təkliflərini 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi müvafiq əsasnamələri təsdiq edilənədək Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 dekabr tarixli 794 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti haqqında Əsasnamə"də müvafiq hissələrdə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. "Azərbaycan Respublikasının Milli Qvardiyasının statusu haqqında" Qanun layihəsini 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli Sərəncamına Əlavə*

## Cəlilabad rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Babaxanlı kəndi | 2 | 908 |
| 2. | Cəfərxanlı kəndi | 1 | 1257 |
| 3. | Cəlilabad şəhəri | 2 | 46662 |
| 4. | Privolnoye kəndi | 4 | 5155 |
| 5. | Şiləvəngə kəndi | 1 | 1271 |
| 6. | Uzuntəpə kəndi | 2 | 8157 |
| **Cəmi** | | **12** | **63 410** |

# Nazirlər Kabineti yanında Operativ Qərargahın iclası keçirilib



**Martın 16-da Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə iclas keçirilib.**

**Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda koronavirus epidemiyası ilə bağlı ölkədəki vəziyyət və hadisələrin mümkün inkişafı variantları, müxtəlif variantlarda hansı tədbirlərin görüləcəyi müzakirə olunub.**

# Milli Məclisin komitə iclasları keçirilib

Martın 16-da VI çağırış Milli Məclisin Elm və təhsil komitəsinin ilk iclası keçirilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev komitə üzvlərini təbrik edib, Prezident İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrin yerinə yetirilməsində deputatlara uğurlar arzulayıb.

Sonra 7 məsələdən ibarət gündəliyin müzakirəsinə başlanılıb. Əvvəlcə komitə sədri gündəlikdəki 4 qanun layihəsini ayrı-ayrılıqda ətraflı şərh edib. Birinci oxunuşda müzakirəyə təqdim olunmuş “Sərhəd mühafizə orqanları haqqında”, “Təhsil haqqında” və “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi, “Elm haqqında” qanunda dəyişiklik edilməsi, “Təhsil haqqında” və “Lisenziyalar və icazələr haqqında” qanunlarda dəyişiklik edilməsi, “Elm haqqında” və “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin əsasən uyğunlaşdırma xarakteri daşıdığı qeyd olunub.

Müzakirələrdə deputatlardan Ceyhun Məmmədov, Etibar Əliyev qanun layihələrinə dair rəy və təkliflərini bildiriblər. Komitədə birinci oxunuşda müzakirə edilən həmin qanun layihələri konseptual baxımdan məqbul sayılıb və hamısı birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

İclasda V çağırış Milli Məclisin Elm və təhsil komitəsinin 2019-cu ilin payız sessiyasında fəaliyyəti haqqında hesabat dinlənilib. Bildirilib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 13 məsələyə baxılıb. Deputatlar çox məhsuldar fəaliyyət göstəriblər.

İclasda hesabat qənaətbəxş sayılıb.

Komitənin 2020-ci ilin yaz sessiyasına dair iş planı da yekdilliklə təsdiqlənib.

Cari məsələlərin müzakirəsində koronavirus infeksiyasına dair Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

* * *

Martın 16-da VI çağırış Milli Məclisin Əmək və sosial siyasət komitəsinin ilk iclası keçirilib.

Komitə sədri Musa Quliyev Milli Məclisin deputatlarına yaz sessiyasının işində uğurlar arzulayıb.

Komitə sədri iclasın gündəliyinə üç məsələnin daxil edildiyini diqqətə çatdırıb. Əvvəlcə deputatlar “Turizm haqqında” qanuna edilən dəyişiklikləri müzakirə ediblər. M.Quliyev bununla bağlı yeni qanun layihəsi hazırlıqlarının davam etdirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin sektor müdiri Adil Vəliyev qeyd edib ki, sənəd üzərində aparılan dəyişikliklər Azərbaycan Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş “ASAN Viza” sistemi haqqında 2019-cu il 9 mart tarixli, 612 nömrəli dəyişikliklərlə bağlıdır. Fərmanda elektron viza ilə bağlı məsələlərin “Turizm haqqında” qanunda təsbit edilməsi nəzərdə tutulur.

Sonra iclasda “Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsi nəzərdən keçirilib.

Hər iki sənəd müzakirə olunduqdan sonra Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Daha sonra komitə sədri 2020-ci ilin yaz sessiyası dönəmində komitənin qanunvericilik işlər planı barədə məlumatı diqqətə çatdırıb. Bildirilib ki, sessiya dövründə komitədə iki vacib dinləmə keçiriləcək. Bunlar əhalinin məşğulluğunun təmin edilməsi sahəsində görülən işlər, digəri isə tütün və tütün məmulatlarından istifadənin məhdudlaşdırılması ilə əlaqədar qanunvericiliyin icrası yönündə ictimai dinləmədir. Birinci ictimai dinləmənin aprel ayında keçirilməsi nəzərdə tutulub.

Komitə üzvləri Ziyad Səmədzadə, Rauf Əliyev, Məlahət İbrahimqızı, Jalə Əliyeva, Sevinc Hüseynova, İlham Məmmədov, Soltan Məmmədov, Arzu Nağıyev, Vüqar Bayramov, Əziz Ələkbərov, Aqil Məmmədov yaz sessiyasının qanunvericilik işləri planı ilə bağlı təkliflərini səsləndiriblər və sənəd təsdiqlənib.

* * *

Dünən həmçinin Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

Əvvəlcə komitənin sədri Səməd Seyidov deputat həmkarlarını Milli Məclisə üzv seçilmələri münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Komitə sədri Prezident İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasındakı çıxışında ölkəmizin beynəlxalq münasibətlərinə dair söylədiyi fikirləri bir daha komitə üzvlərinin diqqətinə çatdırıb. Bildirib ki, deputatlar Prezidentin proqram xarakterli çıxışındakı məsələləri daim diqqətdə saxlamalıdırlar.

Sonra Səməd Seyidov diqqətə çatdırıb ki, iclasın gündəliyinə 6 məsələ daxildir.

Deputatlar əvvəlcə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2020-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş qanunvericilik işləri planını müzakirə ediblər. Komitə üzvləri Sevinc Fətəliyeva, Asim Mollazadə, Nəsib Məhəməliyev, Rasim Musabəyov, Azər Kərimli, Elman Nəsirov, Kamran Bayramov, Sabir Rüstəmxanlı və Cavanşir Feyziyev işlər planı barədə qeyd və təkliflərini bildiriblər. Müzakirələrdən sonra komitənin 2020-ci ilin yaz sessiyası üçün işlər planı təsdiqlənib.

Sonra komitədə bir sıra sazişlər müzakirəyə təqdim edilib.

İclasda “Quru limanlar haqqında” Hökumətlərarası Sazişə qoşulmaq barədə, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında” Sazişin təsdiq edilməsi barədə, “2012-ci il 27 aprel tarixində Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”ə Əlavə Protokolun təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında” Sazişin təsdiq edilməsi barədə və “Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında diplomatik nümayəndəlik və konsulluq müəssisələri əməkdaşlarının ailə üzvlərinin ödənişli əmək fəaliyyəti növlərini həyata keçirmələri haqqında” Sazişin təsdiq edilməsi barədə məsələlər Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Bildirilib ki, bu sənədlər ölkəmizin beynəlxalq əlaqələrinin inkişafına xidmət edir.

* * *

Milli Məclisin Səhiyyə və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası əsasən koranavirus infeksiyasına qarşı aparılan mübarizəyə həsr olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov iclası açaraq gündəliyə daxil olan məsələlər barədə məlumat verdi. Qeyd edildi ki, iclasda koronavirus (COVID-19) infeksiyası ilə mübarizə və onun yayılmasının qarşısının alınması ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlər barədə, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” məsələlər, habelə Səhiyyə komitəsinin 2020-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi müzakirə olunacaq.

İclasda iştirak edən “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı koronavirus infeksiyası ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verdi. O bildirdi ki, əsas məsələlərdən biri bu epidemiya barədə yayılan yanlış informasiya ilə mübarizədir.

“Regionlarımızın əksəriyyətində müasir tibb mərkəzləri və infrastruktur var. İlk olaraq Çində epidemiya ilə bağlı təhlükənin yaranmasını nəzərə alaraq orada təhsil alan tələbələrimizin təxliyə olunması barədə qərar qəbul edildi. Xüsusi qərargah yaradıldı, tədbirlər planı hazırlandı. Bu istiqamətdə TƏBİB-in üzərinə düşən funksiyalar var. Çindən təxliyə edilmiş vətəndaşlarımızla əlaqədar Xüsusi Karantin Tibb Müəssisəsi ayrıldı. Koronavirus infeksiyasının 14 gün inkubasiya dövrünün olması, sürətlə yayılması bir qədər həyəcan doğururdu. Biz tədbirlərimizi müvafiq qaydalara uyğun apardıq. Azərbaycan diaqnostik kitləri əldə edən ilk dövlətlərdən biridir. Bundan başqa, biz müasir tələblərə uyğun tam avtomatlaşdırılmış laboratoriyaların qurulması ilə məşğul olduq. Bu laboratoriyalarda biz gün ərzində 5 mindən çox insanı qəbul etmək imkanına malikik. Sonra İran İslam Respublikası tərəfdən təhlükə barədə məlumatlar aldıq. Biz gömrük-keçid məntəqələrimizdə bütün tibb müəssisələrimizi və onların infeksion bölmələrini 24 saatlıq iş rejiminə keçirmişik. TƏBİB-in mütəxəssisləri yerlərdə treninqlərə başladılar. Xüsusi qoruyucu geyimlərin təchizatı ilə məşğul olduq. İrandan gələn vətəndaşlar onlar üçün ayrılmış tibb müəssisələrində karantinə alındı. Xəstələr daxil olan gün müayinə materialı götürülür, xəstəlik aşkar olunan şəxs xüsusi tibb mərkəzində izolyasiya edilir və müalicəyə alınır, digərlərinin isə müşahidəsi davam etdirilir. Əgər 7-ci gün testin nəticəsi neqativ olarsa, o zaman evə buraxılırlar. Karantində saxlanılma müddəti 14-21 gün davam etdirilə bilər.

Yaranmış vəziyyəti nəzərə alaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq quru sərhədlərimizdə keçid məhdudlaşdırıldı və biz quru sərhədlərimizdə işləri daha stabil vəziyyətə gətirə bildik. Vətəndaşlarımız konsulluğa müraciət edir və xüsusi yaradılmış dəhliz vasitəsilə sərhəd xidməti və gömrük orqanları bizə təhvil verirlər. Bugünədək biz sərhədlərimizi keçərək karantinə alınmış şəxslər arasında 25 nəfərdə pozitiv nəticə aşkar etdik. Yeddi nəfər tam sağalıb, bir nəfər isə vəfat edib. Həmin şəxsdə digər xəstəliklər də mövcud idi.

Artıq ölkəmizə Avropadan gələnlər var. Bununla əlaqədar dövlət qurumlarımızla sıx şəkildə işləyirik. TƏBİB-in mütəxəssisləri hava limanında fəaliyyət göstərirlər. Biz gördüyümüz bütün işləri alqoritm şəklində hazırlamışıq. Hava limanında 3 tibb məntəqəsi yaratmışıq. Bəzi ölkələr var ki, epidemiyanın episentri hesab olunur. Həmin ölkədən gələnlər bilavasitə karantin müəssisələrinə göndərilir. Digər ölkələrdən gələnlər isə TƏBİB tibb məntəqələrinə yönləndirilir. Orada onların müvafiq müayinəsi həyata keçirilir. Əgər simptomları varsa, karantinə göndərilir. Simptomları yoxdursa, onlara bukletlər təqdim olunur və evə göndərilirlər.

TƏBİB tabeliyində olan 3 mindən çox tibb müəssisəsi tam səfərbər olmuş vəziyyətdədir. Sahə həkimlərinə və pediatrlara onlayn təlimlər keçirilir, alqoritm verilib. Biz iki istiqamətdə iş görürük. Bütün poliklinikalarda “qaynar xətlər” ayrılıb. Dövlət Sərhəd Xidməti sərhədi keçmiş şəxslərin siyahısını elektron formada bizə göndərir. Lazımi tədbirlər görülür. Biz bu insanların vəziyyəti barədə daim məlumat alırıq. Bütün bu tədbirlər xəstəliyin yayılmasının qarşısını almağa yönəlib. Statistik göstəricilərdə artım yoxdur. Bu, onu göstərir ki, bu gün vəziyyət tam nəzarət altındadır”, - deyə İdarə Heyətinin sədri diqqətə çatdırdı.

Qeyd edildi ki, Operativ Qərargah bəzi məhdudiyyətlər barədə qərar qəbul edib. Bununla əlaqədar bizim də öhdəmizə düşən işlər var. TƏBİB Səhiyyə Nazirliyi ilə birlikdə sıx koordinasiya şəklində, onlayn rejimdə işləməlidir.

İclasda iştirak edən psixoloq Elnur Rüstəmov COVID-19 epidemiyası ilə bağlı insanlara müvafiq psixoloji yardımın göstərilməsinə dair təkliflərini bildirdi.

Mütəxəssislər deputatların suallarını ətraflı cavablandırdılar.

Sonra “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” məsələlərə baxıldı.

Bildirildi ki, Cinayət Məcəlləsinə “Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması” adlı 139-1-ci maddə əlavə olunur. Əlavəyə əsasən, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda iki min beş yüz manatdan beş min manatadək məbləğdə cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi təkmilləşdirilərək yeni redaksiyada təqdim olunur. Maddədə bildirilir ki, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir. Məcəllənin 388-1-ci maddəsinə də müvafiq düzəlişlər edilib.

Tədbirdə iştirak edən Milli Məclisin komitə sədrləri Əli Hüseynli, Qənirə Paşayeva, Səməd Seyidov, Tahir Mirkişili, deputatlardan Qüdrət Həsənquliyev, Erkin Qədirli, Tahir Kərimli, Nizami Səfərov, Kamal Cəfərov, Bəhruz Məhərrəmov qanun layihələri barədə fikirlərini söylədilər, təkliflərini verdilər.

Müzakirə olunan sənədlər Milli Məclisin plenar iclasına tövsiyə olundu.

İclasda Səhiyyə komitəsinin 2020-ci il yaz sessiyasının işlər planına da baxıldı. Bu müddət ərzində görülməsi nəzərdə tutulan tədbirlər məqbul hesab edildi.

***AZƏRTAC***

## Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərinin müvəqqəti olaraq dayandırılması barədə qərar qəbul edilib

Martın 16-da Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında koronavirus infeksiyasına qarşı mübarizə məqsədilə iki ölkə tərəfindən görülən tədbirlərə dair məlumat mübadiləsi aparılıb.

Hökumət başçılarının qarşılıqlı razılığına əsasən, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərinin 2020-ci il 18 mart saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılması barədə qərar qəbul edilib. Yük maşınlarının sürücüləri istisna təşkil edəcək.



Ölkəyə qayıtmaq istəyən Azərbaycan Respublikasının vətəndaşları üçün çarter uçuşları təşkil olunacaq. Uçuşların qrafikinə dair əlavə məlumat veriləcək.

# Yeni Parlament dövlət quruculuğu prosesində yeni vəzifələr müəyyənləşdirir

*Əvvəli 1-ci səh.*

Bu belə olarsa, deputatlar həm də bəzi yerli icra hakimiyyətlərinin, Prezidentin təbiri ilə desək, özünü “xan, bəy” qismində görən bir çox başçıların özbaşınalıqlarına meydan qalmaz.

Dövlət başçısı xalqımızı narahat edən qlobal problemlərə də toxundu. “İndi koronavirusla bağlı dünyada gedən ajiotaj istər-istəməz bizə də təsir edir. Ancaq hesab edirəm ki, biz bütün səyləri ortaya qoyub bu vəziyyətdən də şərəflə çıxacağıq”, - dedi. Təbii ki, ölkə rəhbərinin bu inamının arxasında ötən qlobal böhran illərinin təcrübəsi və iqtisadiyyatımızın gücü, hələ xeyli müddət əvvəl işlənib hazırlanmış qabaqlayıcı tədbirlərin mükəmməlliyi durur. Məlumdur ki, koronavirus kütləvi hal almağa başlayandan dünya iqtisadiyyatında, o cümlədən neft bazarında geriləmə olacağı proqnozlaşdırılırdı. Azərbaycan bu mənfi təsirlərə hazır idi. Başqa sözlə, iqtisadiyyatımız kifayət qədər yüksək maliyyə imunitetinə və təhlükəsizlik yastığına, eləcə də beynəlxalq kreditor imkanına malikdir. Statistik göstəricilər də iqtisadiyyatımızın dinamik inkişafına şahidlik edir. İqtisadiyyatımız son 16 ildə heç bir ölkədə müşahidə edilə bilməyəcək həddə - 3,4 dəfə artıb. Yoxsulluq 50 faizdən 4,8 faizə düşüb. Xarici borc ümumi daxili məhsulun 17 faizini təşkil edir. Müqayisə üçün deyim ki, bəzi inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizi qədərdir. Cənab Prezident çıxışında bu məsələni xüsusi vurğuladı: “Önəmli məsələ ondan ibarətdir ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Üstəlik, istəsək xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun”.

Maaşların, pensiyaların artımı 10 dəfədən çox olmuşdur. Ünvanlı sosial yardımla əhatə edilən ailələrin sayının daha da artırılmasına nail olmaqdan ötrü cənab Prezidentin göstərişi ilə mövcud metodologiyada düzəlişlər aparılıb. Məcburi köçkünlərə, şəhid ailələrinə keçən il 934 mənzil verilmişdi. Bu il isə onlar 1500 mənzil alacaqlar. Daha 7 min məcburi köçkün bu il yeni mənzillərə köçəcək. Cənab Prezident iqtisadi islahatlardan danışarkən bildirdi ki, şəffaflıq hesabına təkcə keçən il büdcəyə proqnozdan əlavə 1 milyard manatdan çox vəsait daxil olub. Cari ilin ilk iki ayı ərzində vergi orqanları proqnozdan əlavə 181 milyon manat, gömrük orqanları isə 71 milyon manat çox vəsait yığıblar. Ümumi daxili məhsul 2,8 faiz, qeyri-neft ümumi daxili məhsul 6,7 faiz artıb. Qeyri-neft sənayesi istehsalı sahəsində artım 21,7 faizdir.

Bu statistika nədən xəbər verir? Bir qədər əvvəl vurğuladığım kimi, dünya iqtisadiyyatında böhran get-gedə təhlükəli həddə yaxınlaşır. Neftin qiyməti aşağı düşür. Buna görə neft istehsalçısı olan ölkələr təşviş içindədirlər. Azərbaycanda isə əhalinin gəlirləri son iki ayda 9 faiz artıb. İnflyasiya isə cəmi 2,8 faizdir.



Cənab İlham Əliyevin rəhbərliyi altında yaradılan böyük iqtisadi mənbə Azərbaycanı sosial dövlətə çevirmişdir. Ötən il Prezidentin təşəbbüsü ilə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə etmişdir. Minimum əməkhaqqı, minimum pensiyalar müntəzəm olaraq qaldırılmışdır.

Mən həm də həmkarlar ittifaqı təşkilatının sədri olaraq, cənab İlham Əliyevin kölgə iqtisadiyyatının tam aradan qaldırılması barədə fikirlərindən bir qədər geniş danışmaq istəyirəm. Cənab Prezident haqlı olaraq bildirir: “Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur. Ona görə də qanunvericilikdə bütün bu məsələlər, əlbəttə ki, diqqət mərkəzində olmalıdır”.

Cənab İlham Əliyevin iqtisadi, sosial siyasətinin həyata keçirilməsində səylərini səfərbər edən həmkarlar ittifaqı təşkilatları uzun illərdir ki, kölgə iqtisadiyyatı ilə mübarizə aparır. Bakıda bu mövzuda beynəlxalq, respublika miqyaslı konfranslar, seminarlar təşkil edilib. Bu tədbirlərə həmkarlar ittifaqı liderləri, işəgötürənlərin nümayəndələri dəvət olunur. Biz qeyri-rəsmi iqtisadiyyata daxil irili-xırdalı müəssisələrdə həmkarlar ittifaqı təşkilatı yaratmaqla, tərəfdaşlarımızla kollektiv müqavilələr bağlamaqla həmin müəssisələri leqallaşdırmağa çalışırıq. Düzdür, heç də həmişə bu cəhdlərimiz uğurlu alınmır. Amma uğurlu alınanları da az deyil. Güman edirəm ki, cənab Prezidentin tapşırığından sonra Milli Məclis bu sahədə mövcud qanunları təftiş edəcək və onları təkmilləşdirəcək.

Cənab Prezident ənənəsinə sadiq qalaraq yenə də xalqımızın gələcəyi olan gənclərə münasibətini açıqladı. İftixar hissi ilə bildirdi ki, gənclərimiz vətənə, milli köklərə bağlıdırlar, vətənpərvərdirlər. Onlarda bu hissləri daha da möhkəmləndirmək üçün mənəvi və fiziki hazırlıqları diqqətdə saxlamalı, əlavə tədbirlər düşünülüb həyata keçirilməlidir.

Yeri gəlmişkən qeyd edim ki, Milli Məclisə və müvafiq qurumlara verilən bu tapşırıq həm də həmkarlar ittifaqının birbaşa funksiyasına daxildir. Çünki ittifaqımızın üzvlərinin böyük hissəsi gənclərdir. Biz hörmətli Prezidentin gənclərlə bağlı imzaladığı dövlət proqramlarına uyğun olaraq uzun illərdir ki, iş aparırıq. Həyata keçirdiyimiz tədbirlərdə - festivallarda, müsabiqələrdə, konfranslarda, spartakiadalarda, intellektual oyunlarda, ölkəmizin regionlarında təşkil etdiyimiz səfərlərdə gənclər vətənini sevməyi öyrənir, onun tarixini, bugününü, adət-ənənələrini mənimsəyirlər. Gənclərin elmə, peşələrə maraqları artır. Nəhayət, indidən ictimaiyyətçi olmaq vərdişlərinə yiyələnirlər. Cənab Prezidentin Milli Məclisdə gənclərlə bağlı qarşıya qoyduğu vəzifələr bizi bir daha vətəndaşlarımızın bu təbəqəsi ilə apardığımız işi təftiş etməyə və daha da təkmilləşdirməyə istiqamətləndirdi.

Vitse-prezidenti olduğum Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) öz sıralarında dünyanın 163 ölkəsindən 200 milyondan çox həmkarlar ittifaqı üzvünü birləşdirir. BHİK-in xəttilə hər il dünyanın müxtəlif ölkələrində çoxsaylı beynəlxalq tədbirlərdə iştirak edir və Azərbaycan reallıqlarını dünyaya çatdırmağa çalışırıq. İndi isə Prezident İlham Əliyev bizim bu istiqamətdə fəaliyyətimizi konkret ünvana yönəltdi.

Dövlət başçısı Azərbaycan parlamentini beynəlxalq aləmdə təmsil edən deputatların qarşısında bu gün daha böyük vəzifələrin dayandığını söylədi. Dedi ki, “Xüsusilə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya, Bu, əslində, onların xislətidir. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar”.

Cənab Prezidentin nitqi ilə bağlı bizim qarşımızda yeni vəzifələr qoyuldu:

*- Biz iqtisadi qanunvericiliyin daha da təkmilləşdirilməsi ilə bağlı fəaliyyətimizi gücləndirməliyik.*

*- Mövcud qanunların icra vəziyyətini monitorinq etməli və bu tip qiymətləndirməyə uyğun olaraq qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı yeni addımlar atmalıyıq.*

Ölkə Prezidenti qəbul edilən qanunların, eləcə də qanunverici aktların icra vəziyyətinin yaxşılaşdırılmasının vacibliyini xüsusi vurğuladı və parlamentin bu istiqamətdə fəaliyyətinin gücləndirilməsinin zəruri olduğunu bildirdi.

Yeni islahatların əsas prioritetlərindən biri də parlamentlə mərkəzi icra hakimiyyəti orqanları arasında münasibətlərin yeni müstəviyə qədəm qoyması, eləcə də Milli Məclisin rolunun artırılması, mərkəzi icra orqanlarının məsuliyyətinin daha da gücləndirilməsidir.

Cənab İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasında tarixi çıxışı bütöv bir proqram sənəddir. Biz onu öyrənməli və işimizi bu əsasda qurmağı bacarmalıyıq.

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Yenilik memarları, mənəviyyat mühafizləri

Əvvəli 1-ci səh.

Amma bunlar o zaman mümkün olardı ki, zaman da yerində dursun, dünyanın qabaqcıl ölkələri inkişaf proseslərini dayandırsın, texnologiyalar yerində saysın, vətəndaşın yeni ehtiyacları, dövlətdən yeni gözləntiləri ortaya çıxmasın. Bu isə mümkün deyil!

Zaman keçdikcə inkişaf trendləri, baxışlar, metodlar, texnologiyalar, gözləntilər dəyişir. İnkişafın ən mühüm şərti bunlara uyğunlaşmağı bacarmaqdır.

Ona görə islahatlar da həyati zərurətdir və bu, Azərbaycanın, İlham Əliyevin şüurlu seçimidir.

❖ ❖ ❖

Biz indi bunu, adətən öyrəşdiyimiz tərzdə islahat adlandırırıq, əslində isə bu gün Azərbaycanda baş verənlər təşkilati dəyişikliklərdir.

İşlək bir mexanizm olaraq hökumət təsisatının strukturunun, tətbiq etdiyi texnologiyaların və bu mexanizmi çalışdıran, effektiv işini təmin etməli olan insanların dəyişməsidir, büsbütün yenilənməsidir. Bu gün cənab İlham Əliyev Azərbaycanda məhz bu təşkilati dəyişikliyi həyata keçirir. Cəmiyyət də bu dəyişikliklərin uğurlu nəticələrini görür.



Hakimiyyət-xalq münasibətlərində, koordinasiya mexanizmlərində, iş dizaynında, başqa təşkilati formalarda nə qədər böyük yeniliklərin olduğuna şahidik. Bunlar, Azərbaycan insanının kənardan,seyrçi mövqeyindən izlədiyi dəyişikliklər deyil. Öz gündəlik həyatında yaşadığı yeniliklərdir.

Başqa sözlə, Azərbaycan insanı dövlət rəhbərimizin bu Vətən adına yaratdığı dəyişiklik hekayəsini kənardan seyr etmir.

Bütün xoş təəssüratları ilə bu hekayənin içində yaşayır...

Azərbaycanın yeni uğur hekayəsini həyatından, gündəlik güzəranından keçirir...

Cənab İlham Əliyev dövlət idarəçiliyində iş metodlarını dəyişir. İdarəetməyə cəlb edilən və əksəriyyəti öz sahəsində yetərincə özünü göstərə bilmiş səriştəli gənclərdən ibarət olan kadrların simasında işə yanaşmaları, davranışları, vətəndaşlarla kommunikasiya tərzini yeniləyir. Komanda işi prinsiplərini təkmilləşdirir. Bürokratiyanı aradan qaldırır. Tətbiq edilən innovasiyalarla effektivliyi, nəticəyönümlülüyü artırır.

❖ ❖ ❖

İlham Əliyev Azərbaycana yeni nəfəs gətirir...

Başqa mühüm tarixi hadisələrin təfərrüatına varmıram, təkcə elə Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması ilə ötən 3 ildə ölkə həyatında nə qədər müsbət dəyişikliklər baş verdi.

Mehriban xanımın yüksək təşkilatçılıq məharəti, Prezidentin tapşırdığı vəzifələrə məsuliyyətlə yanaşması, öz işini vicdanla yerinə yetirməsi, bu ölkənin insanlarına olan sevgisi, onlar üçün faydalı olmaq niyyətilə göstərdiyi fədakarlıq sayəsində nə qədər sosial problemlər öz həllini tapdı və bu proses indi də davam edir.

Mehriban xanım nümunəsi bir daha göstərdi ki, dövlət idarəçiliyində uğurlu kadrlar, həqiqətən çox şeyi həll edir. Dövlət rəhbərinin verdiyi qərarların layiqincə icrası, onların əqidəsindən, həyata keçirilən siyasətə sadiqliyindən, Vətənə, yurda sevgisindən, ən əsası isə vicdanından çox asılıdır.

Bu mənada, Mehriban xanım başqa yüksək rütbəli məmurlar üçün də vəzifədə necə vicdanlı davranmaq nümunəsini yaradır, Prezidentə sədaqəti sözdə deyil, real işdə, əməldə göstərməyin örnəyini ortaya qoyur, xalqın sevgisini qazanmağın yeganə yolunun səmimiyyətdən, insanların ağrı-acılarını, qayğılarını duya bilməkdən, problemlərinin həlli üçün fədakarlıq göstərməkdən keçdiyini anladır.

Öz vəzifələrinin öhdəsindən gələ bilməyənlər, zamanla ayaqlaşmağı bacarmayıb inkişaf yoluna kötük dığırlamağa çalışanlar, bədnam işlərlə məşğul olanlar, vətəndaşın heç bir işinə yaramayıb, əksinə əngəl törədənlər belə nümunələr işığında indi o qədər idbar, eybəcər görünürlər ki...

Bu eybəcərliyin, geri zəkanın, təfəkkürdəki zülmətin, haləsi getdikcə genişlənən işıq qarşısında kiçilib zamanla gözdən itməsi Azərbaycan insanının bu günə və gələcəyə artan ümididir.

Arzularının getdikcə, yavaş-yavaş reallığa çevrilməsinə şahidliyidir. Ölkədə yaxşı işlərin görülməsinə əminliyidir. İnkişaf prosesinə öz bədnam əməlləri ilə maneə törədənlərin, ona həvalə edilmiş yüksək vəzifəni alver vasitəsi bilib kabinetini bazara, iş masasını piştaxtaya çevirmiş korrupsionerlərin ifşasına, haqq-ədalətin öz yerini tutmasına sevincidir.

Azərbaycanın milli ideallarına, həyata keçirilən inkişaf siyasətinə, ölkənin strateji hədəflərinə sədaqət hissinin ən böyük dəyər kimi aktuallığıdır. Ümumən, əqidəyə, ideyalara, milli maraqlara, göstərilmiş inama sadiqlik cənab İlham Əliyevin dövlətçilik kursunda hər zaman mühüm yer tutub.

Digər amillərlə yanaşı, həm də çox sadə bir səbəbdən ki, bu sədaqətin ən parlaq nümunəsi elə Azərbaycan Prezidenti özüdür. Onun tarixinin ən güclü mərhələsinə yetirdiyi Azərbaycanın bugünkü uğurları, apardığı islahatların müsbət nəticələri Heydər Əliyev yoluna sadiqlikdən gəlir.

Bu islahatlara, inkişaf proseslərinə bacardığı qədər dəstək təkcə sözdə deyil, qəlbinin dərinliklərində də bu yola sədaqət andı içmiş hər bir əqidə adamının mənəvi borcu olmalıdır.

Çünki bu yoldan, bu mənzərələrdən, baş verən bütün bu müsbət dəyişikliklərdən Azərbaycanın gözəl, indikindən də işıqlı günlərinin sorağı gəlir. Bu, övladlarımızın yaşayacağı, çalışacağı, öz həyatını quracağı Azərbaycandır!

Yeni nəsillərimizin bizdən daha qayğısız, problemsiz, rifah içində ömür sürəcəkləri Vətənin müjdəsidir!

O günlərin Azərbaycanını düşüncələrimdə xəyal etdikcə böyük Nazim Hikmətin çox sevdiyim misraları yaddaşımda əks-səda verir: "Ən gözəl günlər hələ yaşanmamış günlərdir..."

Bununla belə, o günlərin daha tez yetişməsi üçün fərd olaraq görməli olduğumuz işlər, mənəviyyatımızla, milli ruhumuzla, dəyərlərimizin qorunub gələcəyə ötürülməsi ilə bağlı çəkməli olduğumuz qayğılar da hələ çoxdur.

❖ ❖ ❖

Bu mövzuda düşüncələrimin bir qismini illər əvvəl çapdan çıxmış "Mənəviyyatın ekologiyası" adlı kitabımda əks etdirməyə çalışmışam.

Amma mənəviyyat mövzusu heç bitib-tükənməz ki...

Dünyanın son aylar üzləşdiyi qəribə vəziyyət düşüncələrimi çox tez-tez mənəviyyat mövzusuna çəkir yenə, bu xüsusda narahat düşüncələrimi kağız-qələmlə bölüşməyə sövq edir.

O qədər az olmayan ömrümdə, açığını deyim ki, Yer üzünün belə bir qarışıqlıq içində giriftar qalmasına hələ şahid olmamışdım. Doğru deyirlər ki, İkinci Dünya müharibəsindən sonra bu, bütün dünyanı lərzəyə salmış ikinci belə xaosdur.

Ruhumuza təravət gətirən Bahar ovqatına, Baharın saf ətrinə, əfsus ki, indi qlobal bir xof da qarışıb. Hansı informasiya mənbəyinə nəzər yetirirsən, insanların sözü-söhbəti koronavirusdur, pandemiyadır, karantin tədbirləridir.

Çinin Uhan əyalətindən başlayıb bütün dünyanı saran xəstəlik təhlükəsi camaatın gözünü qorxudub. Hökumətlər vəziyyətin əndazədən çıxmasının, insanların epidemiyaya yoluxmasının qarşısını almaqdan ötrü gərəkli addımlar atır. Bizim dövlət qurumlarımız da el-obanı bu qlobal bəladan qorumaq üçün lazımi tədbirlər həyata keçirir.

Tariximiz, adət-ənənələrimiz, əcdadlarımızın həyatı belə vəziyyətlərdə ən etibarlı istinadgahdır. Ulularımız oxşar durumlarda həmişə təmkinli davranıblar. "Ellə gələn bəla toy-bayramdır" deyiblər. El birliyinin gücü ilə, səbirləri, təskinlikləri ilə də bütün çətinlikləri, fəlakətləri tezliklə geridə buraxıblar.

Bu dəfə də belə olacaq, əminəm! Pandemiya təhdidi qısa müddətdə tam aradan qalxacaq, baharın gəlişi həyatımıza bütün sıxıntılardan uzaq, yeni, xoş başlanğıclar gətirəcəkdir.

Ağırlığımızı-uğurluğumuzu yer götürəcək, narahatlıqlar ötən aylarda qalacaq.

İndi sadəcə vəziyyətə soyuqqanlı münasibətimizlə, aşırı panikanın qarşısını almağımızla, doğruları yanlışlardan ayırmağı bacarmağımızla hökumətimizə kömək etməyimiz lazımdır.

❖ ❖ ❖

Bunları yaza-yaza onu da düşünürəm ki, əslində bu koronavirus söhbəti bəşəriyyət üçün həm də çox maraqlı bir ibrət dərsi oldu. İnformasiya texnologiyalarının möcüzəvi inkişafının, sosial şəbəkələrin viral effektinin, milyonlarla insanı iki dəqiqənin içində çaşqın vəziyyətə salan və hətta ən böyük dövlətlərin də başağrısına çevrilən "fake news" probleminin dünyanı nə vaxtsa bu vəziyyətə gətirəcəyi bəlkə də gözlənilən idi.

Hələ məktəbli ikən oxuduğum bir aforizmdə dünyada ən təhlükəli üç haldan birincisi kimi "bıçağın uşaq əlində" olması göstərilirdi. İndiki informasiya əsrində böyük məmnuniyyətlə informasiyanın təsadüfi insanlar əlində olmasını bundan da əvvələ qoyardım.

Kütləvi informasiya və onu çatdırma vasitələri, təbii ki, bəşər tarixi boyu mövcud olub. Amma əsrlər boyu kütləvi informasiyanın yayılmasına, insanlara hansı tərzdə çatdırılmasına, ümumiyyətlə, nələrin insanlar üçün ictimai əhəmiyyət kəsb etməsinə nəzarət edən insanlar, təsisatlar da olub.

Ənənəvi media qurumları - qəzetlər, informasiya agentlikləri, radio və televiziya kanalları, klassik jurnalistika sənəti bu zəmində təşəkkül taparaq inkişaf edib.

Keyfiyyətli informasiya insanlar üçün sağlam qida, təmiz ekologiya qədər gərəklidir. Çünki informasiya da insanın mənəvi qidasıdır, mənəvi dəyərlərini formalaşdıran amildir.

Son onilliklərə qədər insanın əsas qayğısı o qədər də güclü olmayan informasiya axınında özü üçün nələrin faydalı olduğunu seçib ayırmaq idi. Bir vaxtlar oxuduğumuz qəzetlərdən hansısa məqalələri kəsib arxivimizin bir küncündə saxladığımız günlər, oxuduğumuz kitablardan iri-iri abzasları, şeirləri, xoşumuza gələn mənalı fikirləri ərinib-usanmadan qeyd dəftərimizə köçürdüyümüz çağlar, hətta təqvimin qoparılmış vərəqlərini üzərindəki hansı maraqlı bilgiyə görə təbərrik kimi bir tərəfdə qoruduğumuz gözəl günlər yadınızdamı?!

Bunu yeni nəslə anlatmaq indi o qədər çətindir ki...

Çünki artıq vəziyyət çox dəyişib.

Qloballaşan dünyamızda insanın ən əsas problemlərindən biri də özünü ona lazım olmayan informasiyalardan qoruya bilməsidir indi. Aramsız informasiya selində çibin sürüsü kimi üzərinə gələn qarmaqarışıq məlumatların çoxunu özündən aralı tutmağı bacarmasıdır.

Bu isə heç də həmişə mümkün olmur. Bəşəriyyət informasiya selinin yaratdığı mənəviyyat böhranı ilə qarşı-qarşıyadır. Bıçaq uşaq əlində təhlükə yaratdığı kimi, indi çağdaş dünyamızın insanı da təsadüfi kəslərin əlinə düşmüş informasiyanın yaratdığı müşkül durumla üz-üzə qalıb. Sosial şəbəkələrin yaratdığı imkanlar hərəyə bir kütləvi informasiya vasitəsi verib. Burada hər kəs istədiyini yazıb, çəkib paylaşır. Öz təhsil səviyyəsindən, dünyagörüşündən, məsələlərin məğzini anlama imkanlarından, özünüifadə tərzindən asılı olaraq bir ucdan informasiya istehsal edir.

Koronavirus infeksiyasının dünyanı belə böhran durumuna gətirib çıxarması bir tərəfdən bu virusun həqiqətən insan səhhəti üçün doğurduğu təhlükədirsə, başqa tərəfdən də informasiya xəstəliyinin yaratdığı pandemiyadır, informasiya mərəzinin fəsadlarıdır.

Arzu edək ki, bu bəla tezliklə sovuşsun, illər öncə hər birimizin buna oxşar, amma daha məhdud miqyasda şahid olduğumuz SARS, "Quş qripi", "Donuz qripi", "Ebola virusu" və s. bu kimi mövzular sayaq koronavirus panikası da keçmişdə qalsın. Eyni zamanda insanlar mənəvi dünyalarını da informasiya virusundan qoruya bilsinlər.

❖ ❖ ❖

Son günlər bütün dünyada yaranmış mənzərə adamı bir həqiqət üzərində də düşünməyə sövq edir. İnsan övladı nə qədər böyük kəşflərə imza atır-atsın, elmdə, texnologiyada nə qədər irəli gedir-getsin, ən çətin anlarında yenidən öz ibtidasına qayıdır. Gəldiyi başlanğıca sığınır, mənəviyyatında daldalanır. Bir-birinin dəstəyinə, tarix boyu yaratdığı mənəvi dəyərlərə nə qədər böyük ehtiyacının olduğunu bir daha duyub dərk edir.

İnsanı ən çətin durumlardan çıxaran, əlindən tutan, yol göstərən, həyatın bataqlıqlarında itib batmağa qoymayan məhz onun mənəviyyatıdır!

Bizi güclü edən, bizimlə tarixi keçmişimiz, dəyərlərimiz arasında bağlantı yaradan, eyni zamanda gələcəyimizə işıq salan da məhz mənəviyyatımızdır. Ona görə mənəviyyatımızın qorunması qayğısını bir an belə yaddan çıxarmamalıyıq.

İnformasiya erasının yaratdığı yeniliklər qarşımızda saysız-hesabsız imkanların geniş üfüqlərini açdığı qədər mənəviyyatımızı da təhdid edir, nə yazıq ki!

Öz həyat yoldaşının ifşa videosunu sosial şəbəkələrdə paylaşan, şəxsi ailə məsələlərini canlı efirdə ictimailəşdirən və münaqişədə olduğu şəxs qədər özünü, ailəsini, övladlarının gələcəyini də bədnam edən Azərbaycan kişisinin obrazı artıq təsəvvürə sığandırsa, deməli, mənəviyyatımızda gedən aşınmalar haqqında indi daha ciddi düşünməliyik.

Yaxud, 8 Mart Qadınlar Günü münasibətilə aksiya keçirən bir qrup gənc qadının heyrətamiz davranışları əgər Bakı küçələrində baş verirsə, əllərində tutduqları biədəb məzmunlu şüarlar cəmiyyətimizə ünvanlanırsa...

Baxdıqca adamın, necə deyərlər, matı-qutu quruyur.



Sanki hansısa xarici qüvvələr özümüzdən, aramızdan olan bu cür dayaz düşüncəli, hərəkətinin sosial məsuliyyətini anlamayan, xırda şəxsi mənfəət, qrant naminə hər cür əmələ qol qoymağa amadə olan kəslərin əli ilə bizi ən güclü olduğumuz nöqtədən - mənəviyyatımızdan vurmaq istəyirlər.

Bakı Dövlət Universitetinin 100-cü ildönümü münasibətilə keçirilən tədbirdəki çıxışında Azərbaycan Prezidenti mənəviyyatımıza qarşı yönələn bu cür təhdidləri nəzərdə tutaraq demişdi: "Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir".

Azərbaycan Prezidenti bu fikirləri səsləndirərkən mənəviyyatımıza qarşı yönələn təhdidləri nəzərdə tutur. Bizi istəməyən qüvvələrin mənəviyyatımızı sıradan çıxarmaq, ruhumuzu işğal etmək, insanlarımızı təsir altına salmaq üçün necə cidd-cəhd göstərdiklərini cənab İlham Əliyev təcrübəli dövlət adamı kimi müdrik fəhmi, zəngin informasiyaları ilə hamımızdan yaxşı bilir. Cəmiyyətin bu cür zərərli təsirlərə qarşı müqavimət gücünü artırır. Eyni zamanda, dolayısı ilə hər birimizə anladır ki, mənəviyyat məsələləri təkcə dövlətin yox, özünü bu Vətənə aid bilən hər kəsin qayğısıdır.

Mənəviyyat, mənəvi dəyərlər, Azərbaycan xalqı olaraq bizim "Axilles dabanı"mızdır. Bu bizim təkcə keçmişlə, tarixi köklərlə rabitəmiz deyil, eyni zamanda özünümüdafiə sistemimizdir. Sakin olduğumuz torpaqların dünya üçün önəminə, geostrateji mövqeyinə görə tarix boyu çox yadellilərin hücumuna məruz qalmışıq. Yurdumuzu yağmalayıblar, var-dövlətimizi əlimizdən alıblar, isti aşımıza soyuq su calayıblar, qurulu evlərimizi tar-mar ediblər, bizi bir-birimizə yadlaşdırmaq, düşüncələrimizi dəyişmək, milli kimliyimizi əlimizdən almaq istəyiblər. Amma bunu bacara bilməyiblər. Çünki mənəviyyatımız bütün təhlükələrdən daha güclü olub. Tarixin ən amansız axınlarında da mənəviyyatımızdan yapışaraq, ona sığınaraq xilas olmuşuq.

Hər zaman çətin durumumuzda pənah gətirdiyimiz, ən müşkül suallarımıza onda cavab tapdığımız mənəviyyatımızın indi bizim dəstək əlimizə ehtiyacı var.

Bu məsələdə hər kəs çəkici eyni zindana vurmalıdır...

❖ ❖ ❖

Novruz ab-havasının, bahar ovqatının, ölkə həyatındakı yenilənmə ruhunun daha bir xoş əlaməti kimi hakimiyyət düşərgəsindən, birbaşa dövlətin ali rəhbərinin dilindən müxalifət düşərgəsinə dialoq çağırışları ünvanlanır. Ayrı-ayrı müxalifət partiyalarının təmsilçiləri Prezident Administrasiyasına dəvət edilir. Onlarla müxtəlif məsələlər ətrafında müzakirələr, polemikalar aparılır.

Əks fikirlər, rəylər dinlənilir. Bu mütərəqqi addımların birbaşa dövlət rəhbərinin təşəbbüsü ilə atıldığı məlumdur. Keçirilən görüşlərin, aparılan müzakirələrin nəticələri Prezidentə müntəzəm məruzə olunur. Dialoq prosesi heç bir qeyd-şərt qoyulmadan aparılır. Məqsəd ölkədə siyasi mədəniyyətin yüksəlməsi, çoxpartiyalı sistemin inkişafıdır. Çünki bu meyil də Azərbaycanın yenilənməsi prosesinə böyük fayda verə bilər.

Bütün sivil cəmiyyətlərdə olduğu kimi, bizdə də siyasi mübarizə ilə düşmənçiliyin sərhədləri bəlli olmalıdır. Müxalifətçilik hakimiyyətə, ölkəyə, xalqa düşmən kəsilmək anlamına gəlməməlidir. Siyasi mübarizə şəxsi münasibətlərə sirayət etməməlidir. Siyasətlə məşğul olan insanlar, bir-birini sərt tənqid etdikləri kimi, yeri gələndə bir-birinə qarşı comərd davranmağı da bacarmalıdırlar, barışıq, anlaşma, dar gündə kömək qapısını həmişə açıq saxlamalıdırlar.

Necə ki ulularımız belə edib...

Necə ki cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın timsalında hakimiyyət düşərgəsi dəfələrlə bunun nümunəsini yaradıb, yaradır.

*Hamımızın bircə Vətənimiz var...*

*Hamımızın çörək təknəsinin unu, urvası bu Vətənin dəyirmanından gəlir. Suların hansı səmtdən axması, dadı, rəngi, nə fərq edər?!.*

*Əsas odur ki, bu Vətənin bütün axar suları sonda ümumi nova tökülüb öz dəyirmanımızın çarxını hərəkətə gətirsin.*

*Təki su düşmən dəyirmanına tökülməsin...*

**Hüseynbala MİRƏLƏMOV,**
***Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri***

# Enerjinin İpək yolu

## TANAP-ın təməlinin qoyulduğu vaxtdan 5 il keçir

Əvvəli 1-ci səh.

Həmin vaxtdan da layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün detalları nəzərdən keçirilmişdi. 2014-2015-ci illər TANAP üçün çox məsuliyyətli bir fəaliyyət dövrü olmuşdu.

Trans-Anadolu Qaz Boru Kəmərini Azərbaycandan İtaliya torpağınadək uzanan 3500 kilometrlik möhtəşəm enerji dəhlizinin birləşdirici halqası adlandırırlar. O, Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. TANAP Gürcüstan-Türkiyə sərhədində CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometrdir.

TANAP ildə 16 milyard kubmetr Azərbaycan təbii qazını nəql edəcək. Bunun 6 milyard kubmetri Türkiyədəki, 10 milyard kubmetri isə Avropa ölkələrindəki istehlakçılara çatdırılacaq. Növbəti illərdə isə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə qədər artırılacağı planlaşdırılır.

TANAP artıq reallıqdır. Enerjinin İpək yolu sayılan bu kəmər 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlanıb. 2019-cu il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Bu tədbirdəki çıxışında Prezident İlham Əliyev məhz kəmərin təməlinin qoyulduğu günü xatırlayaraq demişdir: "Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı... TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan da sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan BP şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür. TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı".

TANAP təkcə iki ölkə üçün, region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi" bir sıra ölkələrin, layihənin ayrı-ayrı seqmentlərində tərəfdaşlıq edən çoxsaylı şirkətlərin sıx əməkdaşlığı nəticəsində gerçəkləşib. Dəhlizlə nəql olunacaq təbii yanacağın Avropanın iri şirkətləri tərəfindən alınması nəzərdə tutulub. TANAP məhz belə bir önəmli dəhlizin mühüm hissəsidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarının birində TANAP-ı "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" adlandırıb.

Keçən ay "Cənub qaz dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən VI toplantısında bu boru xəttinin fəaliyyətindən geniş söhbət açılmışdır. TANAP-ın baş direktoru Saltuk Düzyol indiyədək kəmərlə Türkiyəyə 4 milyard kubmetrdən çox Azərbaycan təbii qazının nəql olunduğunu bildirmişdir. Mavi yanacağın ixracı ahəngdar və təhlükəsiz şəkildə davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



Qabaqlayıcı tədbirlər səmərə verir

# Koronavirusla mübarizə milli təhlükəsizlik və həmrəylik məsələsidir

## Ölkəmizdə əhalinin sağlamlığının qorunması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirilir

Çinin Uhan şəhərindən alovlanıb, dünyanı bürüyən yeni növ COVID-19 - koronavirus infeksiyası Dünya Səhiyyə Təşkilatı (DST) tərəfindən qlobal pandemiya elan olunub.

Azərbaycan hökuməti də DST-nin tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirir.

Fevralın əvvəlindən etibarən reallaşdırılan tədbirlər infeksiyanın xaricdən idxalını məhdudlaşdırmaq və onun ölkə daxilində yayılmasının qarşısını almaq məqsədi daşıyıb. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib.

Bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb.



### Koronavirusla bağlı şayiə yayanlar məsuliyyətə cəlb olunacaqlar

Baş Prokurorluğun Mətbuat xidmətinin rəisi Eldar Sultanov bildirib ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən aidiyyəti dövlət orqanları, o cümlədən TƏBİB, Səhiyyə Nazirliyi ilə əlaqəli şəkildə qeyd edilən virusun yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı və profilaktik tədbirlər barədə, eləcə də virusa yoluxmuş və karantinə alınmış şəxslərin sayı, onların müalicəsi və görülmüş digər tədbirlər barədə mütəmadi olaraq ictimaiyyətə məlumat verilir. Buna baxmayaraq, bəzi kütləvi informasiya vasitələri və ayrı-ayrı sosial şəbəkə istifadəçiləri tərəfindən Daxili İşlər Nazirliyi və Baş Prokrorluğun xəbərdarlıqlarından nəticə çıxarmayaraq, həqiqəti əks etdirməyən və cəmiyyətdə süni ajiotaj yaratmağa hesablanmış şayiələr yayılır.

Onun sözlərinə görə, ictimaiyyətdə yanlış fikir formalaşdırmaq məqsədi güdən və qəsdən bu kateqoriyadan olan informasiyaların yayılmasını həyata keçirən KİV-ə, o cümlədən sosial şəbəkə istifadəçilərinə bir daha xəbərdarlıq edilib: "Gələcəkdə bu qəbildən olan qanunazidd hərəkətlərini davam etdirəcəkləri təqdirdə, onların barələrində cinayət məsuliyyəti də daxil olmaqla, ən ciddi qanunamüvafiq tədbirlərin görülməsi təmin olunacaq".

Yanlış fikrin formalaşmasına xidmət edən məlumatları yayan şəxslərin cəzalandırılması ilə bağlı məlumat verən Eldar Sultanov əlavə edib ki, bəzi KİV-də və sosial şəbəkələrdə cəmiyyətdə süni ajotaj yaradılmasına maraqlı olan şəxslər tərəfindən bir neçə gün əvvəl guya koronavirusa yoluxmuş şəxsin xəstəxanada vəfat etməsi ilə bağlı bir səs yazısı yayılıb: "İctimaiyyətdə yanlış fikrin formalaşmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən tərəfimizdən dərhal təkzib olunub. Eyni zamanda aparılmış araşdırmalarla həmin şəxsin xəstəxanada ağciyərlərin pnevmoniyası səbəbindən vəfat etməsi müəyyən olunub və bu barədə ictimaiyyətə məlumat verilməklə həmin məlumatı yayan KİV-ə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq rəsmi xəbərdarlıq edilib".

### İmtahanlar təxirə salındı

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, 5, 12 və 19 aprel 2020-ci il tarixlərində orta ümumtəhsil müəssisələrinin 11-ci sinif şagirdləri üçün buraxılış imtahanlarının keçirilməsi, 16 mart - 14 aprel tarixlərində isə ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə ərizə qəbulunun başlanılması nəzərdə tutulurdu.

Lakin koronavirusun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlərə uyğun olaraq qeyd olunan tarixlərdə keçirilməsi planlaşdırılan imtahanlar təxirə salınıb, ali və orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunun vaxtı isə dəyişdirilib.

11-ci sinif buraxılış imtahanları, eləcə də də martın 9, 15 və 29-da keçirilməli olan imtahanların vaxtı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahın qərarlarına uyğun olaraq müəyyən ediləcək və bu barədə ictimaiyyətə əvvəlcədən məlumat veriləcək.

### Dövlət Miqrasiya Xidməti fəaliyyətini məhdudlaşdırdı

Dövlət Miqrasiya Xidmətindən (DMX) bildirilib ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar görülən tədbirlər çərçivəsində 2020-ci il martın 15-dən 20-dək "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti məhdudlaşdırılıb və DMX-nin qəbul şöbələrinin də "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərdiyini nəzərə alaraq bunlar əcnəbilər və vətəndaşların diqqətinə çatdırılır:

- 2020-ci il martın 15-dən 20-dək "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti məhdudlaşdırılıb. Lakin 15-19 mart tarixlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə, iş icazəsi, vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sənədlərinin hazır olacağı barədə əvvəlcədən məlumat verilən əcnəbilər və vətəndaşlar "ASAN xidmət" mərkəzlərindən sənədlərini əldə edə bilərlər;

- 2020-ci il martın 20-28-i Novruz bayramı ilə əlaqədar "ASAN xidmət" mərkəzlərində qeyri-iş günləri olduğundan bu tarixlərdə sadalanan müraciətlər üzrə sənədlərinin hazır olacağı barədə əvvəlcədən məlumat verilən şəxslər yalnız zəruri hallarda, Dövlət Miqrasiya Xidmətinin qəbul şöbələrinə yaxınlaşaraq sənədlərini əldə edə bilərlər;

- Əcnəbilərin ölkəmizdə olduğu yer üzrə qeydiyyatı, müvəqqəti olma müddətinin uzadılması, müvafiq yaşama, iş icazələrinin alınması, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa, xitam ilə bağlı müraciətlər, o cümlədən hazır sənədlərlə bağlı rüsumların ödənilməsi yalnız elektron qaydada (https://eservice.migration.gov.az) qəbul ediləcək (Əlavə olaraq, Xidmətin rəsmi internet səhifəsində elektron müraciətlərlə bağlı izahlı məlumatlar yerləşdiriləcək). Rüsum vaxtında ödənildikdən sonra hazır sənədin bir müddət götürülməməsi heç bir məsuliyyət yaratmır;

- Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Xidmətin Təlim Tədris Mərkəzi tərəfindən təşkil olunan Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsi ilə bağlı kurslar təxirə salınır (bu barədə əlavə məlumat veriləcək). Kurs ilə bağlı müvafiq metodiki vəsait əldə etmək istəyən əcnəbilər Təlim Tədris Mərkəzi ilə əlaqə saxlaya bilərlər (012) 566 - 37 - 74 telefon nömrəsi);

Əlavə məlumat üçün fasiləsiz (24/7) fəaliyyət göstərən 919 "Çağrı" Mərkəzinə zəng etmək olar.

### 2100 avtobusda dezinfeksiya işləri yekunlaşdırılıb

Koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün ictimai nəqliyyat sahəsi də nəzarətdə saxlanılır.

Bakı Nəqliyyat Agentliyinin məlumatına əsasən, insanların həm təmas, həm də hava damcı yolu ilə infeksion xəstəliklərə yoluxmasına qarşı olan dərman preparatları ilə avtobuslar dezinfeksiya edilib.

Gecə saatlarında istehsalat bazasında 22, 35, 191, 76, 12 nömrəli xətt marşrutları üzrə hərəkət edən avtobuslarda dezinfeksiya işləri həyata keçirilib. Həmin bazada hər gün gecə saatlarında 80-dən artıq avtobus dezinfeksiya edilib. Artıq gündəlik olaraq xəttə çıxan 2100 avtobusda dezinfeksiya işləri tamamilə yekunlaşdırılıb və təkrar dezinfeksiya işləri aparılır.



### Xaricdəki həmvətənlərimizin sağlığı diqqət mərkəzindədir

Azərbaycan Respublikasının İstanbuldakı Baş konsulu Məsim Hacıyev deyib ki, vətəndaşlarımızın Azərbaycana göndərilməsi istiqamətində görülən tədbirlər cənab Prezidentin nəzarətindədir: "Bakıdan göndərilən çarter təyyarələri ilə vətəndaşlarımızı qruplar halında ölkəmizə göndəririk. Prezidentimizin verdiyi tapşırıq və göstərişlər əsasında bu işlər Bakıda çox dəqiq qurulub, biz də vətəndaşlarımızın vaxtında aeroportlara çatdırılaraq yola salınması işində heç bir ləngiməyə yol vermirik. Prosesi yenə eyni dəqiqliklə davam etdirəcəyik. Ona görə ölkəmizə getmək istəyən vətəndaşlarımızdan Baş konsulluğumuzla əlaqələrini kəsməmələrini, müraciətlərini davam etdirmələrini xahiş edirik".

Bildirək ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində Azərbaycan və Türkiyə arasında qarşılıqlı razılıq əsasında sərnişinlərin hava və quru yolu ilə səfərlərinin müvəqqəti olaraq dayandırılmasından sonra Türkiyədə olan Azərbaycan vətəndaşlarının ölkəyə gətirilməsi üçün Türk Hava Yolları və Azərbaycan Hava Yollarının İstanbul-Bakı istiqaməti üzrə uçuşları həyata keçirilir.

### Koronavirus dünyada

Dünya Səhiyyə Təşkilatının koronavirusla bağlı martın 16-na olan məlumatında bildirilir ki, 157 ölkədə virusa yoluxma halı qeydə alınıb.

Ümumi yoluxanların sayı 169 610, yeni yoluxanların sayı 192 nəfərdir. İndiyədək yeni koronavirusdan 6518 nəfər ölüb. Onlardan 15-i yeni ölüm faktıdır. Xəstəliyə yoluxanlardan 77 776 nəfər sağalıb ki, onlardan 1600 nəfəri yeni sağalanlardır.

Çinin Səhiyyə İşləri üzrə Dövlət Komitəsinin son açıqlamasında bildirilir ki, ölkədə yeni növ koronavirus qurbanlarının sayı 14 nəfər, yoluxanların sayı isə 16 nəfər artıb, daha 838 nəfər müalicə olunaraq xəstəxanalardan evə buraxılıb.

Məlumata görə, Çində virusa yoluxanların ümumi sayı 80860 nəfərə çatıb, onlardan 67490 nəfər sağalıb, 3213 nəfər ölüb.

Türkiyənin səhiyyə naziri Fəxrəddin Qoca məlumat verib ki, ölkədə koronavirusa yoluxanlar iki nəfər artaraq 18 nəfərə çatıb. Bu səbəbdən ölkədə bütün əyləncə məkanları ayın 17-də yerli vaxtla saat 10:00-dan müvəqqəti olaraq bağlanacaq.

İranın Xobreqan Ekspertlər Məclisinin üzvü ayətullah Seyid Haşim Bəthayi koronavirusdan ölüb. Bir neçə gün öncə koronavirusa yoluxan Bəthayi Qum şəhərinin Behişti adına xəstəxanasına yerləşdirilib və ötən gün səhər saatlarında vəfat edib.

İndiyə qədər Gürcüstanda koronavirusa 33 yoluxma halı təsdiqlənib. Karantində 637, stasionar nəzarətdə isə 54 nəfər saxlanılır.

Fransada yeni növ koronavirus infeksiyası 120 nəfərin ölümünə yol açıb. Ölkənin Baş Səhiyyə İdarəsinin məlumatına görə, son sutkada 29 nəfər virusun qurbanı olub. Virusa yoluxanların sayı isə 4,5 mindən 5,4 minə çatıb. Hazırda 400 nəfər ağır vəziyyətdədir.

Serbiya hökuməti isə koronavirusun yayılması ilə əlaqədar ölkədə fövqəladə vəziyyət rejimi elan edib. Ölkənin Səhiyyə Nazirliyi bazar günü axşam saatlarında ölkədə 48 nəfərin koronavirusa yoluxduğunu açıqlayıb.

### Virciniya koronavirus halının qeydə alınmadığı yeganə ABŞ ştatıdır

ABŞ-da yeni növ koronavirusa yoluxma hallarının sayı 3010-a çatıb, 61 nəfər bu virusdan ölüb.

ABŞ-ın Xəstəliklərə Nəzarət və Profilaktikası Federal Mərkəzinin (CDC) məlumatlarına əsasən, bundan əvvəl ABŞ-da yeni növ koronavirus infeksiyana yoluxanların sayı 2816 nəfərdən 2885 nəfərə qədər artmış və bunlardan 60 nəfəri ölmüşdü.

Məlumatlara görə, koronavirus vətənə dönmüş 70 amerikalıda, habelə 49 ştatın 2940 sakinində və Kolumbiya bölgəsində aşkar edilib. Qərbi Virciniya heç bir yoluxma halının qeydə alınmadığı yeganə ABŞ ştatı olaraq qalır.

Misirdə isə koronavirusa daha 17 yoluxma faktı qeydə alınıb və bununla da ölümcül virusa yoluxmuş xəstələrin sayı 110 nəfərə çatıb. Hazırda ölkədə universitet və orta məktəblər bağlanılıb, kütləvi tədbirlərin keçirilməsi qadağan edilib.

İraq hökuməti koronavirusun yayılması ilə mübarizə tədbirləri çərçivəsində paytaxtda komendant saatı tətbiq edib, eləcə də Bağdaddan və geriyə olan uçuşları dayandırıb.

İndiyədək İraqda qonşu İrandan gələn 124 nəfərdə koronavirus infeksiyası aşkarlanıb. Virusa yoluxmuş 10 nəfər ölüb, 26 nəfər sağalıb. Avstriyada təsdiqlənmiş koronavirusa yoluxma hallarının sayı 860-a çatıb.

### COVID-19 Təcili Yardım Fondunun yaradılması təklif edilib

Hindistanın Baş Naziri Narendra Modi Cənubi Asiya Regional Əməkdaşlıq Təşkilatının (SAARC) üzv ölkələri üçün COVID-19 Təcili Yardım Fondunun yaradılmasını təklif edib.

N.Modi bölgədə COVID-19 ilə birgə mübarizə aparmaq məqsədilə ortaq bir strategiya tərtib etmək üçün videokonfrans vasitəsilə SAARC ölkələrinin rəhbərləri ilə qarşılıqlı müzakirə keçirib.

Bütün ölkələrin könüllü yardımı əsasında COVID-19 Təcili Yardım Fondunun yaradılmasını təklif edən N. Modi Hindistanın bu fond üçün ilkin olaraq 10 milyon ABŞ dolları təklif etdiyini deyib.

Avropa İttifaqı (Aİ) koronavirusla mübarizə tədbirləri çərçivəsində qoruyucu tibbi vasitələrin kənar ölkələrə ixracını qadağan edib. Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen bildirib ki Aİ daxilindəki tələbatı ödəmək, tibb işçilərinin təhlükəsizliyini təmin etmək məqsədi ilə xüsusi tibbi geyim formaları, əlcəklər və tibbi eynəklərin təşkilat xaricindəki ölkələrə ixracı yalnız xüsusi icazə aldıqdan sonra mümkün olacaq.

### Koronavirusdan qorunmaq mümkündür

Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun Virusologiya şöbəsinin müdiri, dosent Lalə Rüstəmova məlumat verib ki, immunitetin normal, sağlam olması birbaşa genetik faktorlarla əlaqədardır. Sağlam immuniteti olan şəxsdə nəinki koronavirus, digər yoluxucu, somatik xəstəliklərin gedişi və nəticəsi də yaxşı olur. Həkimin sözlərinə görə, koronavirus infeksiyası ilə bağlı 1936-cı ildən başlayaraq ABŞ, İngiltərə, Almaniya və digər Avropa ölkələrində elmi işlər aparılır: "Bu, yeni yaranmış bir virus deyil. Əslində bu virus və onun törətdiyi infeksiyalar keçən əsrin əvvəllərindən məlumdur və intensiv araşdırılır. Sadəcə birdən baş verən infeksiya bütün dünyada ajiotaj yaratdı. Bu virusların ətraf mühitdə qalması bir sıra amillərdən asılıdır. Birinci iqlim faktorudur, yəni alimlərin tədqiqatları göstərib ki, bu viruslar 0-18 dərəcədə temperaturda ətraf mühitdə 4-11 günə qədər qala bilir. Temperatur artdıqca bu virusların yaşama şansı azalır, inaktivləşmə gedə bilir. Bu viruslar ilin soyuq aylarında, mənfi temperaturda daha yaxşı qalır. Virusun torpaqda yaşaması ilə bağlı isə konkret tədqiqatlar yoxdur. Ətraf mühitdə, bərk əşyalarda, müəyyən yumşaq səthlərdə həmin virusların qalma müddəti öyrənilib".

L.Rüstəmova qeyd edib ki koronavirus hissəcikləri aerozol şəklində ətraf mühitdə 8-10 saat ərzində qala bilir: "Koronavirusdan qorunmaq üçün DST-nin irəli sürdüyü tövsiyələr var. Şəxsi gigiyena qaydalarına əməl etməkdən əlavə, hər bir şəxs özündə yüksək hərarət, öskürək, zökəm halları, xüsusilə təngnəfəslik hiss edərsə, dərhal həkimə müraciət etməlidir. Polimeraz zəncirvarı reaksiyasında bu virus təsdiqləndikdən sonra həmin şəxslə təmasda olanlar dərhal təcrid edilməlidir. Əsas yol budur. Həmçinin 70 faizli spirtin bu viruslara öldürücü təsiri olduğu bildirilir. İndiki spirtlər 95 faizlidir, demək bunların da təsiri var. Bundan başqa, xlor tərkibli məhlullar, 1 faizli fenol, 10 faizli soda məhlulu da virusa öldürücü təsir göstərir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

---

## Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri UNEC-də distant dərsləri izləyiblər





Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvlərindən ibarət nümayəndə heyəti UNEC-də distant dərsləri izləyiblər.

Milli Məclisin deputatı Etibar Əliyev, İctimai Şuranın sədr müavini Nadir İsrafilov, şuranın katibi, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov, professor Hikmət Əlizadə və Mayis Əliyevin təmsil olunduğu nümayəndə heyəti öncə UNEC Eksterndə tibbi-profilaktik müayinədən keçiblər.

Sonra UNEC-in rektoru, professor Ədalət Muradov İctimai Şuranın üzvlərini distant dərslərin keçirildiyi auditoriyalarla tanış edib. Qonaqlara UNEC Ekstern barədə ətraflı məlumat verilib. Bildirilib ki, mərkəz 14 nəfərlik heyətlə 20 min tələbəyə distant təhsil vermək imkanına malikdir. Martın 12-dən start verilən distant dərslərdə gün ərzində 9200 tələbəyə azərbaycan, rus, ingilis və türk dillərində dərslər tədris olunur. Şura üzvləri dərsləri canlı olaraq izləyiblər. Distant tədrisin beynəlxalq standartların tələblərinə cavab verdiyindən məmnunluqlarını ifadə edən şura üzvləri, tələbə-müəllim arasında interaktiv dərs mühitinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıblar.

Şura üzvləri inzibati otaqlara baxış keçiriblər. Müəllimlərin asudə vaxtlarının səmərəli təşkili, texniki dəstək, eləcə də digər otaqlarla tanış olublar.

Sonda Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri universitetdə tətbiq olunan distant tədrisi alqışlayaraq, bunu Azərbaycan ali təhsilində mütərəqqi bir yenilik kimi qiymətləndiriblər.

---

## Koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar "Azercell" xidmət mərkəzlərində xüsusi iş rejimi elan edilib

"Azercell Telekom" MMC-dən alınan məlumata görə, koronavirus infeksiyasının (COVID-19) Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bir ay müddətində kütləvi tədbirlərin təxirə salınmasına, həmçinin dövlət və özəl sektora aid qurumların fəaliyyəti üçün xüsusi qaydaların işlənib hazırlanmasına dair qərarına uyğun olaraq "Azercell Telekom" MMC öz ofis və xidmət mərkəzlərində xüsusi iş rejimini tətbiq edir.

Belə ki, Bakı və bölgələrdə çalışan Müştəri Xidmətləri Mərkəzləri, "Azercell Eksklüziv" və "Azercell Ekspres" ofisləri, eləcə də "Azercell"in rəsmi diler məntəqələri fəaliyyətini davam etdirərək hər gün **09:00-dan 18:00-a** qədər müştərilərə xidmət göstərəcək. Eyni zamanda, virusdan qorunmaq məqsədilə bütün ofislər qoruyucu maska, əlcək, antiseptik vasitələrlə təmin edilir, ofislərdə mütəmadi olaraq dezinfeksiya tədbirləri həyata keçirilir.

Bununla yanaşı, ölkədə tətbiq olunan qabaqlayıcı tədbirləri nəzərə alaraq "Azercell Telekom" öz abunəçilərinə ev şəraitindən ayrılmamaları və kütləvi insan axınının mövcud olduğu yerlərə baş çəkməmələri üçün şirkətin aşağıdakı alternativ xidmət kanallarından istifadə etməyi tövsiyə edir:

- Online Müştəri xidmətləri **https://www.azercell.com/az/**;
- "Kabinetim" Mobil tətbiqi və onun tərkibindəki çat xidməti **https://www.azercell.com/my/login**;
- " Azercell"in rəsmi Facebook, Twitter və Instagram səhifələri;
- "Azercell" Telefon Mərkəzi:
- Fakturalı Xətt abunəçiləri: +994(012) 490-52-52 şəhər nömrəsi və ya 6565 qısa nömrəsinə
- Fakturasız Xətt (SimSim) abunəçiləri: +994(012) 490-49-49 şəhər nömrəsi və ya 2002 qısa nömrəsinə.

Qeyd etmək lazımdır ki, yaranmış vəziyyətlə bağlı şirkətin fəaliyyətində müştəri məmnuniyyətinə təsir edə biləcək heç bir texniki problem və ya ləngimə nəzərdə tutulmur və "Azercell"in bütün texniki heyəti, Müştəri Xidmətləri mərkəzləri, həmçinin məsul vəzifələri icra edən departament rəhbərləri və şirkət prezidenti xüsusi iş rejimində fəaliyyətlərini davam etdirəcəklər.

---

## Operativ qərargah Türkiyədə olan Azərbaycan vətəndaşlarının ölkəyə gətirilməsi ilə bağlı məlumat yayıb

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində Azərbaycan və Türkiyə arasında qarşılıqlı razılıq əsasında sərnişinlərin hava və quru yolu ilə səfərlərinin müvəqqəti olaraq dayandırılmasından sonra Türkiyədə olan Azərbaycan vətəndaşlarının ölkəyə gətirilməsi üçün bu gün Türk Hava Yolları və Azərbaycan Hava Yollarının İstanbul-Bakı istiqaməti üzrə uçuşları həyata keçirilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, Türkiyə ərazisində müvəqqəti əsasda olan Azərbaycan Respublikası vətəndaşlarının növbəti günlər ərzində Azərbaycana gətirilməsini təmin etmək üçün Azərbaycan Hava Yolları tərəfindən Türkiyə istiqaməti üzrə çarter reysləri həyata keçiriləcək.

Azərbaycana qayıtmaq istəyən vətəndaşların Azərbaycan Respublikasının Ankaradakı Səfirliyi və ya İstanbuldakı Baş konsulluğunda qeydiyyatdan keçmələri xahiş olunur.

Geri qayıtmaq üçün müraciət edən vətəndaşlar sırasında aşağıdakı hallara üstünlük veriləcək:

- Türkiyə ərazisində müvəqqəti və ya qısa müddətli əsasda olan;
- Türkiyə ərazisindən tranzit məqsədləri üçün istifadə edən;
- Azərbaycan Hava Yolları ilə qarşıdan gələn günlər üzrə geri qayıtma bileti olan;
- Yaşlı olan, azyaşlı uşağı olan və ya xəstəlik durumu olan şəxslər.

Türkiyədən qayıdan şəxslər müayinədən keçiriləcək və zərurət yarandığı halda 14-28 günlük karantin rejiminə yerləşdiriləcəklər. Bütün vətəndaşlardan karantin rejiminə ciddi şəkildə riayət etmək tələb olunur.

Qeyd edək ki, Dünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya elan olunmuş və dünyanın əksər ölkələri fövqəladə vəziyyət rejiminə keçib.

İnsanların səfərlər şəraitində digər insanlarla təmas və yoluxma riskinin yüksək olduğunu və indiki halda ən yaxşı mühafizənin qaldığı yerdə özünü karantin olduğunu nəzərə alaraq, ölkə daxilində və ölkə xaricində olan vətəndaşlara səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur.

---

## "Mingəçevir" SES-in etibarlılığı və təhlükəsizliyi gücləndirilir

"Azərenerji" ASC-nin Mətbuat xidməti xəbər verir ki, "Azərenerji" ölkənin ən böyük su elektrik stansiyası olan "Mingəçevir" Su Elektrik Stansiyasında təmir-bərpa işləri həyata keçirir. 6 hidroaqreqatdan ibarət "Mingəçevir" Su Elektrik Stansiyasında aparılan işlər nəticəsində dayanıqlıq, etibarlılıq və təhlükəsizlik artırılır.



Ən əsası isə tezliyin avtomatik tənzimlənməsi istiqamətində böyük layihə gerçəkləşir. Qeyd edək ki, 2018-ci ilin yayında baş verən qəza və nəticədə enerji sisteminin çökməsinin bir daha təkrarlanmamasına görə əks-qəza avtomatikasının, o cümlədən rele-mühafizəsinin yenilənməsi ilə yanaşı, tənzimləmənin avtomatik aparılması üçün bir çox ölkələrin müasir texnologiyaya əsaslanan avadanlıqları alınaraq işə qoşulur.

Bu günə qədər 6 hidroaqreqatdan ibarət stansiyanın 4 hidroaqreqatında təmir işləri başa çatdırılıb, tənzimləmə, idarəetmə sistemləri dəyişdirilib, təsirlənmə və yeni generatorun mühafizə qurğuları işə qoşulub.

Hazırda 1 hidroaqreqatda disk bağlayıcısının dəyişdirilməsi prosesi gedir və işlər yekunlaşandan sonra axırıncı aqreqatda da təmir prosesinə başlanacaq və bununla da ötən əsrin 50-ci illərindən istismar edilən 6 hidroaqreqatın hamısında təmir işləri başa çatacaq.

## Qabaqlayıcı tədbirlər səmərə verir

# Sosial izolyasiya qaydaları vətəndaşların təhlükəsizliyinə xidmət edir

### Həyata keçirilən qabaqlayıcı tədbirlər koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını alacaq

*Əvvəli 1-ci səh.*





Epidemiyanın Çində pik dövrü ilə müqayisədə Avropada hər gün daha çox yoluxma halı baş verir.

Dünya Səhiyyə Təşkilatı (DST) koronavirusu qlobal pandemiya elan edib. Bu, bütün ölkələrə əhalisini və dünyanı qorumaq üçün fəaliyyətə keçməyə çağırışdır və qlobal həmrəyliyə nail olmaq çox vacibdir. İnfeksiyanın Avropada və dünya ölkələrində geniş yayıldığı şəraitdə dövlətlər vətəndaşlarının sağlamlığının qorunması və virusun daha geniş coğrafiyaya yayılmasının qarşısının alınması üçün ciddi tədbirlərin həyata keçirilməsinə başlayıblar. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmamasına görə ayrı-ayrı dövlətlərlə təmasların minimallaşdırılması və ya ümumiyyətlə, dayandırılması, daxili həyatda sərt məhdudiyyətlərin tətbiq edilməsi bir çox ölkələr üçün səciyyəvi hal alıb. Bu sırada artıq bir çox dövlətlər arasında sərhədlər bağlanılıb, təyyarə uçuşları dayandırılıb, turist səyahətləri ləğv edilib, idman və digər kütləvi tədbirlər təxirə salınıb.

Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. DST ekspertlərinin qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Bu yaxınlarda Azərbaycanda səfərdə olan DST missiyasının məlumatında bildirilir ki, Azərbaycan COVID-19 infeksiyasının geniş yayıldığı İranla həmsərhəd olsa da, öz ərazisini virusun yayılmasından etibarlı qorumağı bacarır. Məlumatda Azərbaycanın DST-nin yeni koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan 17 ölkədən biri olduğu da bildirilir.

Hazırda Azərbaycan hökuməti DST-nin tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib. Fevralın əvvəlindən reallaşdırılan tədbirlər infeksiyanın xaricdən idxalını məhdudlaşdırmaq və onun ölkə daxilində yayılmasının qarşısını almaq məqsədi daşıyır. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib.

İnfeksiyanın dünya ölkələrində geniş yayılması ilə əlaqədar DST tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunması Azərbaycanda əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib. Bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb.

Tətbiq olunan sosial izolyasiya tədbirlərinə əsasən ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınıb, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilib. Kinoteatrların, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılıb. Toy məclislərinin keçirilməsi qadağan edilib. Dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi də qadağandır. Restoran və kafelərdə iş rejimi axşam saat 21:00-dək müəyyən edilib və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir. Həmçinin restoran və kafelərdə kütləvi şənliklərin, məclislərin təşkili də qadağan olunub. Saat 21:00-dan sonra fəaliyyət göstərən klubların fəaliyyəti dayandırılıb. Bunlarla yanaşı, tibb müəssisələrində müalicə alan şəxslərin yaxınları tərəfindən ziyarəti də ləğv edilib.

Ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara riayət olunaraq həyata keçirilməsi qərara alınıb. Aptek, ərzaq mağazaları, market və supermarketlərin iş rejimində isə dəyişiklik yoxdur.

Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə müvafiq məsuliyyət qoyur. Çünki bütün bunlar milli təhlükəsizlik və milli həmrəylik məsələsidir və tutduğu mövqedən, baxışlarından asılı olmayaraq hər bir vətəndaşdan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələbi var.

Hər bir vətəndaş bilməlidir ki, tətbiq olunan qaydalar ilk növbədə onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və məcburi addımlardır. Buna görə də hamı qaydalara anlaşıqlı, dözümlü yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır.

Kütləvi informasiya vasitələri, fəal sosial şəbəkə istifadəçiləri bilməlidirlər ki, mövcud qaydalar həm də cəmiyyətimizin informasiya təhlükəsizliyi məsələsidir. Hər bir media orqanı, sosial şəbəkə istifadəçisi vətəndaşlar tərəfindən qaydalara riayət olunmasını potensialına uyğun təbliğ etməli, insanları maarifləndirməli, cəmiyyətdə panika və ajiotaj yaranmasına yol verməməli, insanların narahatlığına səbəb olacaq məlumatlar, şayiələr yaymaqdan çəkinməlidirlər. Təəssüflər olsun ki, belə bir şəraitdə xüsusən sosial şəbəkələrdə insanları panikaya salacaq informasiyalar dövriyyəyə buraxılır. Hamı bilməlidir ki, yalan, dezinformasiya xarakterli video və fotolar, səs yazıları, iddialar təxribat kimi qiymətləndiriləcək və müvafiq hüquqi məsuliyyət doğurur. İctimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcək.

Hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir. Ona görə də hər bir vətəndaş nümunəvi davranışı, dövlət orqanlarının işinə dəstək verməklə özünü, ailəsini, yaxınlarını qorumuş olacaq və ümumilikdə cəmiyyətimizin təhlükəsizliyinə öz vətəndaş töhfəsini verəcək. Təkcə dövlət orqanlarının səmərəli fəaliyyəti deyil, ayrı-ayrılıqda hər bir şəxsin sosial məsuliyyətdən irəli gələn davranışı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarını qeyd-şərtsiz icra etməsi qarşıda duran vəzifələrin mümkün qədər effektiv icrasını təmin edən əsas faktorlardan biridir.

Bu günə olan məlumata görə, Azərbaycanda 18 nəfər koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altında saxlanılır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. 6 nəfər isə müalicə olunaraq sağalıb.

Azərbaycan güclü dövlətdir və öz vətəndaşlarının bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. Koronavirusla bağlı Azərbaycandakı vəziyyət bir sıra ölkələrdəki kimi təhlükəli deyil. Həyata keçirilən qabaqlayıcı tədbirlərin isə bu infeksiyanın yayılmasının qarşısını tamamilə alacağı şübhəsizdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Paytaxtda tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilib







**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat xidmətinin verdiyi məlumata görə, koronavirus (COVID-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.**

Bakı şəhərində bu xəstəliyə yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti tərəfindən xüsusi tədbirlər görülür. Məsələnin ciddiliyi nəzərə alınaraq hər 10 gündən bir Departamentin balansında olan 11300 ədəd yaşayış binalarında, binalardakı ümumi istifadə yerlərində, giriş blokları və pilləkən marşlarında, sakinlərin daha çox istifadə etdiyi yerlərdən olan lift kabinələri və onun ətrafında, məişət tullantılarının atıldığı konteyner meydançalarında, həyət və yaşayış məhəllələrində, həmçinin digər yerlərdə tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər aparılır.

Hər gün səhər saatlarında Departamentin işçiləri tərəfindən suya xüsusi dezinfeksiyaedici maddə qatılmaqla küçə və prospektlərin kənarları, yol kənarlarındakı məhəccərlər və digər yerlər yuyulur. Həmçinin paytaxtdakı kooperativ binaların və yaşayış komplekslərinin rəhbərlərinə öz ərazilərində bu kimi profilaktiki tədbirlərin keçirilməsi ilə bağlı tapşırıqlar verilib.

Eyni zamanda paytaxt sakinlərinin daha çox istifadə etdikləri ticarət mərkəzlərində dezinfeksiya işləri aparılır, əlavə qabaqlayıcı tədbirlər görülür. Xüsusilə bazarlarda təmizlik işlərinə nəzarət gücləndirilir. Bazar rəhbərlikləri gündəlik olaraq axşam saatlarında ticarət bitdikdən sonra bazarda tam təmizlik işlərinin və bütün satış sahələrinin dezinfeksiyasının aparılması ilə bağlı xəbərdarlıq edilib və aparılan işlər aidiyyəti qurumların nəzarətinə alınıb.

Bakı Şəhər İcra Hakimiyyətinin tabeçiliyində olan 346 Məktəbəqədər Təhsil müəssisələrində dezinfeksiya işləri başa çatdırılıb və həmin müəssisələrin işə başlaması ərəfəsində yenidən bu iş aparılacaq.

Mətbuat xidmətindən həmçinin hər bir vətəndaşın şəxsi və kollektiv gigiyena tələblərinə riayət etmələrinin vacibliyi də vurğulanmışdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# EPİDEMİYA - Tarixin qaranlıq səhifələri

***O nə ağdərili tanıyır, nə qaradərili… Nə müsəlmanlığı anlayır, nə yəhudiliyi, nə də xristianlığı… Böyük-kiçik, cavan-qoca, varlı-kasıb da saymır…***
***Neçə-neçə imperatorun, bəy-xanın, yaradıcı şəxslərin həyatına son qoyub... Zaman-zaman imperatorluqları çökdürüb, orduları qırıb... Böyük siyasi çevrilişlərə, coğrafi, demoqrafik titrəmələrə yol açıb. Bəşəriyyətin mövcudluğu boyunca Yer üzündə milyonlarla insanın ölümünə səbəb olub... Və sərhəd tanımayan bu güc müxtəlif adlarla dünya tarixinə yazılıb. Ölümün isə bir ümumi adı olub - epidemiya…***
***Hazırda tarixin qaranlıq səhifələrinə qərq olan, böyük miqyasda insan tələfatına səbəb olan epidemiyalardan danışacağıq.***









## "Qara ölüm"

Epidemiyaların tarixi insan oğlunun torpaqla işləməyə başlaması zamanından ölçülür. Vəhşi torpaqların məhv edilərək əkin məqsədilə istifadə edilməsi siçovulları, siçanları, gənələri, birələri və ağcaqanadları insanlara daha yaxın yaşamağa məcbur edirdi. Bu heyvanlar özləri ilə taun, yatalaq, qızdırma... kimi "sürprizlər" də gətirirdilər. Üstəlik, yüz minlərlə insanın yaşadığı şəhərlər ortaya çıxdıqca kütləvi ölümlər də artırdı. Və bu, o qədər adi vəziyyət alırdı ki, şumerlilər, misirlilər epidemiyaların tanrılar tərəfindən yayıldığına inanırdılar. Təbii ki, o zamanlar insanlar kütləvi ölümlərin məntiqini uzun müddət anlaya bilmirdilər. Baş verənlərin səbəbini ilk qavrayan insan yunan həkimi Hippokrat oldu. O, hava, su və yer faktorlarının hər hansı birindəki ani dəyişikliyin epidemiyalara yol açdığını söylədi.

İnsanlığın qarşılaşdığı ən qədim və qorxunc epidemiyaların bəlkə də birincisi "qara ölüm" adlandırılan taundur. Hələ eramızdan əvvəl V əsrdə ordular mühasirəyə aldıqları qalalardakı içməli suları zəhərləmək üçün taun xəstəliyinə tutulmuş insanları, ya da heyvanları quyulara atırdılar. 1172-ci ildə bizanslılar Venesiya şəhərini mühasirəyə aldıqlarında şəhərin bütün quyu və bulaqlarını taunlu heyvan leşləri ilə doldurmuşdular.

Bəşər tarixində taunun üç pandemiyası məlumdur. 527-ci ildən 580-ci ilə qədər davam edən birinci pandemiya tarixə "Yustinianın taunu" adı ilə daxil olub. İmperator Yustinian 541-ci ildə Konstantinopolda taxtda oturarkən Avropada başlayan epidemiya əvvəlcə Misirə, sonra Fələstinə, Suriyaya və Anadoluya çatdı. Yustinian Konstantinopola bütün çıxışları bağlasa da, epidemiya şəhərə hərbi hissələr tərəfindən gətirilən materiallar arasında olan siçovullar vasitəsilə daxil olmuşdu. Siçanların tükləri arasında gizlənən bir millimetrdən az "Xenopsylla" adlı böcək mədəsində ölümcül bakteriya daşıyırdı. Bu böcəklər uçaraq yaxınlıqdakı digər siçanların tükləri arasında yerləşib qısa zaman ərzində çoxaldı. Böcək insan bədəninin istənilən nöqtəsinə düşərək həmin şəxsi tauna yoluxdurdu və bir neçə gün ərzində ölməsinə səbəb oldu. Bir həftə ərzində şəhərdə xəstəlik sürətlə yayılaraq kütləvi ölümə yol açdı. Xəstəlik zamanı Konstantinopol əhalisinin 40 faizini itirdi. Epidemiya işçi qüvvəsi və əsgər sayının azalmasına səbəb oldu və Bizansın zəifləməsi ilə nəticələndi. Epidemiya Aralıq dənizinin liman şəhərlərinə və digər Yaxın Şərq ölkələrinə yayılıb, oradan da Avropaya keçdi.

50 milyondan artıq insanın ölümünə səbəb olmuş ikinci pandemiya 1334-cü ildə Çində başlayıb. Taun xəstəliyinə yol açan "Yersina pestis" adlı bakteriyanın vətəni monqol bozqırları sayılır. O illərdəki həddindən artıq istilər Asiya çöllərində yaşayan birələr və gəmirici heyvanları monqol çöllərinə doğru sürmüşdü. Mədələri taun bakteriyası ilə dolu birələr monqol atlılarının kürəyində Asiya və Avropanı dolaşdı. 1352-ci ildə Avropa əhalisinin üçdə bir hissəsi, yəni 25 milyon adam taundan həlak oldu.

Taunun üçüncü pandemiyası 1894-cü ildə Honkonqda başlayıb və bir milyondan çox insanın həyatına son qoydu. Xəstəliyi gəmilərdəki siçovullar yaydığı üçün sonrakı illərdə dünyanın 100-dən artıq limanında epidemiya baş verdi və 12 milyondan artıq adam öldü. Bu pandemiya zamanı xəstəliklə bağlı böyük kəşflər edildi. Fransız alimi A.Yersen və yapon alimi S.Kitazato xəstəliyin törədicisini kəşf etdilər. Mikrobun yayılmasında siçovulların, çöl gəmiricilərinin və birələrin rolu müəyyənləşdirildi, taunun təbii ocaqlılığı aşkar olundu. 1926-cı ildə V.A. Xavkin və başqaları tərəfindən peyvənd işlənib hazırlandı.

## On milyonlarla insanı öldürən vəba



Çox qədim tarixə malik xəstəlik olan vəba haqqında eramızdan əvvəl V əsrə aid sanskrit dilində yazılar aşkarlanıb. Vəba epidemiyası çox güman ki, Hindistan yarımadasında başlayıb. Xəstəlik ilk dəfə 1817-ci ildə ticarət yolları ilə Rusiyaya, daha sonra Avropanın digər hissələrinə, Avropadan Şimali Amerikaya və bütün dünyaya yayılıb. O vaxtdan bəri on milyonlarla insanın həyatına son qoyub. Təkcə Rusiyada 1847-1851-ci illər arasında 1 milyondan çox insan vəbadan həyatını itirib. Xəstəlik 1827-1835-ci illər arasında davam edən ikinci pandemiya dövründə 150 min amerikalının yaşamına son qoyub. 1848-1854-cü illər arasında bu xəstəlik yalnız İngiltərədə 250 min yoxsulu öldürüb. Hindistanda 1900-1920-ci illər arasında 8 milyondan çox insan vəbadan dünyasını dəyişib.

1854-cü ildə ilk dəfə Con Snou adlı ingilis həkim çirkab sularının vəbaya səbəb olduğunu aşkarlayıb. Ötən 200 il ərzində 7 vəba pandemiyası baş verib. Ən sonuncusu 1961-ci ildə İndoneziyada olub. Xəstəlik 2010-cu ildə Haitidə baş verən zəlzələdən sonra kəskin şəkildə baş qaldırıb. 2010-cu ilin oktyabrından 2015-ci ilin avqustuna qədər 700 mindən çox haitili vəbaya yoluxub, 9 mindən çox insan dünyasını dəyişib. Xəstəliyin baş qaldırmasına BMT-nin nepallı əsgərlər yaşayan bazası səbəb olub. Əsgərlər insan tullantılarını bir çox haitilinin suyundan içmək, yemək bişirmək və çimmək üçün istifadə etdiyi Artibonit çayına atmışdılar.

Dünyada hələ də çoxlu sayda insan vəbaya yoluxur. 2010-cu ildən bəri aparılan hesablamalar göstərir ki, hər il 3-5 milyona qədər insan vəbaya yoluxur, 58-130 min arası insan bu xəstəlikdən vəfat edir.

## "Tanrının lənətlədiyi bir köpək"

Tarixin başlanğıcından bu yana ən çox insan canı alan xəstəlik malyariyadır. Ağcaqanadların yaratdığı bu xəstəliyə səbəb dünyadakı ən kiçik heyvan olan "Plasmodium" parazitidir. Ağcaqanadların bir çox növü mövcuddur, lakin malyariya parazitinin keçiricisi yalnız Anopheles cinsindən olan ağcaqanadlardır. Daha çox Afrikada yayılan bu xəstəlik hər il təxminən 600 milyon insanın bədənini işğal edir və 1 milyon afrikalı körpənin həyatını alır. Tarixin ən böyük komandirlərindən biri - Makedoniyalı İsgəndər də Babildə malyariyaya məğlub olub.

Malyariya Avropada XVIII əsrdən etibarən geriləməyə başladı. İnkişaf edən kapitalizm səbəbiylə o tarixə qədər bataqlıqların çoxu qurudulmuş, ağcaqanadların artma sahəsi olan meşələrin çoxu yox edilmişdi. Dünya Sağlamlıq Təşkilatı 1957-ci ildən etibarən malyariya ilə sıx mübarizə içindədir.

Tarix boyunca insanın qarşılaşdığı ən ürküdücü epidemiyalardan biri də cüzamdır. O qədər qədim bir xəstəlikdir ki, gerçək mənşəyi bilinmir. Norveçli həkim Gerhard Hansen 1874-cü ildə "Mycobacterium Lepra" bakteriyasını cüzamla əlaqələndirməyə bacarsa da, xəstəliyin necə yayıldığı bilinmir. Cüzama misirlilər "ölümdən əvvəlki ölüm" adını vermişdilər və xəstələri "palçıq şəhəri" deyilən bir yerə göndərirdilər. Qədim Çin və Hindistanda cüzamlılar dərhal öldürülür, ya da yandırılırdı. Konfutsi cüzamlı bir müridinin üzünə baxmağı rədd etmişdi. Mesopotamiyalılar üçün cüzamlılar "vəhşi eşşəklər"dən fərqlənmirdi. Koreyalılar üçün bir cüzamlı "Tanrının lənətlədiyi bir köpək" idi. Qısası, tarix boyunca cüzamlılar hər zaman qara siyahıda yer alıblar.

Cüzamlılar üçün ilk xəstəxanaların qurulduğu Avropada da vəziyyət çox fərqli deyildi. Cüzamlılar eyni tip paltar geyməyə məcbur edilir, bu paltarlarının üzərinə böyük bir "L" hərfi işlənirdi. Sağlam olanları xəbərdar etmək məqsədilə zəng daşıyırdılar. İstədikləri şeyi işarə etmək üçün bir çubuqları, su stəkanı və sədəqə çantaları vardı. Cüzam və cüzamlılar Avropadan XIV əsrdə yox oldular. Günümüzdə Afrika və Hindistanda 15 milyona qədər cüzamlı olduğu təxmin edilir.

Cüzam tarix "səhnə"sindən çəkilərkən onun yerini başqa epidemiya - vərəm alırdı.Vəhşi kapitalizmin amansız şərtlərində avropalıların 70 faizi vərəmə tutuldu. Frederik Şopen, Nikkolo Paqanini, Robert Lyuis Stevenson, Fridrix Şiller, Anton Çexov və Frans Kafka kimi məşhurlar da vərəmlə vuruşurdular. Vərəm də "Mycobacterium" adı verilən 300 milyon yaşlı mikrob ailəsinə daxildir. Böyük ehtimalla 7000 il əvvəl insanların malqaraları əhliləşdirib bir çoxunu dar məkanlarda yerləşdirmələri ilə ortaya çıxdı.

## Minlərlə ildir dünyanı dolaşan xəstəlik

Birinci Dünya Müharibəsi zamanı yatalaq xəstəliyi milyonlarla insanın canını aldı. 1914-1918-ci illər arasında "Typhus" bakteriyasını daşıyan bitlərin yaratdığı bu epidemiya müharibənin yaratdığı daha bir dəhşət idi. Avropa və Asiyada bu virus səbəbindən 25 milyon insan xəstələndi və xüsusilə Sovet İttifaqı ölkələrində təxminən 3 milyon insan öldü. Qərb ölkələri epidemiyanın nədən qaynaqlandığını başa düşdülər və bitlərdən xilas olmaq üçün tədbirlər görüldü. Şərq ölkələri virusa qarşı daha gec tədbir gördüyü üçün dünyanın bu hissəsində daha çox insan öldü.

1918-ci ilin yazında qrip insanlara düşmən kəsildi. Döyüş meydanlarında 4 il ərzində 15 milyon insan ölmüşdüsə, qripdən cəmi bir il ərzində eyni sayda insan həyatını itirdi. Həmin ildə yalnız ABŞ-da ölənlərin sayı 550 min idi ki, bu rəqəm ABŞ-ın Koreya və Vyetnam döyüşlərində verdiyi ölü sayından çox idi. Epidemiya zamanı Alyaska kəndlilərinin hamısı yox olarkən Hindistanda 12 milyon adam həyatını itirdi.

1918-1920-ci illərdə yayılmış, 500 milyon insanın yoluxduğu "H1N1" qrip virusu dünyada 50-100 milyon arası sağlam insanın ölümünə səbəb oldu. Bu rəqəm Birinci və İkinci Dünya müharibələrində ölənlərin ümumi sayından dəfələrlə çoxdur. "İspan qripi" adlandırılan pandemiya tarixin ən böyük fəlakətlərindən biri sayılır. Epidemiya Birinci Dünya müharibəsinin son aylarında İspaniyadan dünyaya yayılmağa başlayıb və ilk aylarda 8 milyon adam virusun daşıyıcısına çevrilib. Hətta o dönəmin İspaniya kralı XIII Alfons da qripə yoluxub.18 ay müddətində dünyada 550 milyon adam, yəni planet əhalisinin 29,5 faizi bu qripə yoluxub. "İspan qripi" bəşər tarixinin ən böyük qrip pandemiyasıdır.

Qrip virusu elm tərəfindən 1933-cü ildə müəyyən olunub. Ancaq onun minlərlə ildir dünyanı gəzdiyi təxmin edilir. İlk qrip epidemiyası isə başlanğıcını insan oğlunun at, donuz və ördəyi əhliləşdirməsindən götürüb. Bu gün ördək mədəsinin "dünyanın ən yaxşı işləyən qrip fabriki" olduğu deyilir. Elə 1957-ci ildə "Asiya qripi" pandemiyasının da Çində ördəklərdən insana keçən xəstəliklə başladığı düşünülür. Bu xəstəlik təxminən 4 milyon insanın həyatına son qoyub.

Bu xəstəliklərin bəziləri tarixə gömülüb, bəziləri indi mövcud olsa belə, əvvəlki illərdəki kimi kütləvi insan tələfatına səbəb olmur. Çünki bu gün elm bir çox ciddi xəstəliyin peyvəndini kəşf edib, müasir tibb gündən-günə inkişaf edir, xəstəliklərlə mübarizə mexanizmləri dəyişir, inkişaf edir. Lakin viruslar da tam ölmür, hər 10, 14 ildən bir genetik dəyişikliyə uğrayır ki, bu da onu tam məğlub etməyə imkan vermir. Hər ötən ildə dünya yeni epidemiyalarla rastlaşır. Onların bir çoxunun qarşısı alınır, lakin bir o qədərinin də qarşısını almaq mümkün olmur. Tarixboyu insan-virus savaşı belə olub, bundan sonra da dünya var olduqca belə davam edəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***




## ● İlin əziz günləri

**Bu gün Boz ayın dörd çərşənbəsinin sonuncusu - Torpaq çərşənbəsidir. Xalq arasında bu çərşənbə "Axır çərşənbə", "Yer çərşənbəsi", "Çərşənbə-suri" və başqa adlarla da qeyd olunur.**



# Torpaq çərşənbəsi

Torpaq bolluq, xeyir-bərəkət mənbəyidir. Əski inanclara görə, dörd mühüm ünsürdən sonuncusu oyandıqdan sonra Su, Od və Yel dünyanı dəyişir, insanları çətinlikdən, sıxıntılardan qorumaq üçün daha da güclənir. Folklorşünas alim Azad Nəbiyev yazırdı: "Torpağın oyanmasını ulu əcdadlarımız ən şən, şux mərasimlər, nəğmələr, ayinlər ilə qarşılamışlar. Torpaq çərşənbəsi ərzin donunu dəyişir, adamlar qıtlıqdan, çətinlikdən qurtarmaqda özündə daha böyük qüvvə tapır. Bu inamla bağlı xalq arasında yayılmış əski bir mifoloji təsəvvürə görə, adamların məhrumiyyət və qıtlıqdan əziyyət çəkdikləri bir gündə Sel (Su), Atəş, Yel Torpaq xatunun yeraltı məbədinə qonaq gəlirlər. Burada yatmış Torpaq xatunu oyadıb adamların aclıq və qıtlıq çəkdiklərini ona söyləyirlər. Torpaq xatun "Adamları fəlakətə salan özü fəlakətə düşər" - deyib, yerindən qalxır, Sel (Su), Atəş, Yel və Torpaq xatun əl-ələ verib:

Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi,
Təzə ömür, təzə məhsul, il gəldi.

- söyləyir və oxuya-oxuya işıqlı dünyaya çıxırlar. Deyirlər, həmin gün elin əziz günü olan "Axır çərşənbə" idi".

Zaman-zaman bu çərşənbə ilə bağlı xalq arasında yaranmış rəvayətlər, əfsanələr, atalar sözləri və digər folklor nümunələri nəsillərdən-nəsillərə ötürülərək yaddan çıxmayıb. Folklorşünasların yazdığına görə, bir rəvayətdə deyilir ki, Axır çərşənbədə Xızırın qardaşı, dağ-təpə, yer sahibi Zinda öküzünü itirir, meşəyə onu axtarmağa gedir. Öküzü tapa bilmir, elə meşədə yatır, qar yağdığına görə qarın altında qalır. Elə həmin gecə Bozatlı Xızır göyün doqquzuncu qatından yerə enib qardaşını axtarmağa başlayır. Qardaşını qarın altından tapır, onu nəfəsilə qızdırır. Zinda qarın altından çıxır, öküzünü axtarıb tapır, hamı Zindanın evinə gəlir. Axşam Xızır qızıldan tökülmüş kotan və boyunduruğu qardaşına verir, çərşənbələşdikdən sonra Xızırzinda adı ilə bayram keçirib torpağı oyatmağa çalışırlar.

Folklorşünas Ülkər Nəbiyeva qeyd edir ki, inanca görə, Axır çərşənbədə Xızırzinda insanlara bərəkət paylayır. Ona görə də bütün evlərdə un çuvallarının ağzını açardılar ki, paylanan bərəkətdən onlara da pay düşsün. Çərşənbə gününün özünəməxsus adətləri var. Onlardan biri də belədir ki, ev sahibləri heç kimlə kəlmə kəsmədən əllərini una vurub evin divarlarına, həyətdəki meyvə ağaclarının kötüyünə yavaşca balta ilə toxunar və deyərdilər: "Nə yatmısan, oyan, bərəkət payını götür". Bağçadakı bar verməyən ağaca isə "kəsəcəyəm" deyərək hədə-qorxu gəlirdilər, bu zaman bir başqa adam sanki Xızırzindanın dilindən belə deyirdi ki, "kəsmə, bu ağac təzə ildə bar verəcək, buna mən zamin..."

İlaxır çərşənbə qədim zamanlarda zəngin mərasim, oyun və tamaşalarla qeyd edilib. Onlardan bir çoxu indi keçirilsə də, bəziləri unudulub...

Torpaq çərşənbəsində qadınlar birlikdə buğdadan "səməni mayası" hazırlayardılar. Buna səməni həlimi, yaxud, maya səməni də deyərdilər. Bu həlim çəmənlikdə, ya da müqəddəs ocaq, pir və məscidlərin yanında bişirilirdi. Mənbələrə görə, bu çərşənbə axşamı gecədən sübhə qədər insanlar cəmlənər, "səməni toyu" keçirərdilər. Ağbirçək qadınlar səməni mayası bişən qablara yaxınlaşıb pul, nəmər, yumurta qoyub təzim edər, sağ əllərini üç dəfə qazanlara, sonra dodaq və alınlarına çəkərdilər. Bu adətə "qazan ziyarəti" deyilərdi. İnanırdılar ki, Xızırzinda gəlib səməni mayasını qəbul edəcək. Qazanların üstünə sinidə un qoyardılar ki, Xızırzindanın əlinin izi burada görünsün. Səməni mayası sübh tezdən yeyilərdi. O, əvvəlcə övladı olmayan gəlinlərə, xəstə uşaqlara verilərdi. Səməni mayası şirin, dadlı olarsa, Xızırzinda tərəfindən qəbul edildiyini düşünürdülər.

Folklorşünasların bildirdiyinə görə, keçmişdə belə deyirdilər ki, Torpaq çərşənbəsində yerin altından "çilif" və ya "çilləxana" adlı iki tərəfi açıq, dərin, dar yol olur, sübhdən "ağırlığımı yer götürsün, mətləbimi Allah versin" deyərək həmin yeraltı yoldan keçəndən sonra üç dəfə alma, yaxud başqa meyvə yeyilməliydi. Tədqiqatçılar qeyd edirlər ki, insanlar bu inancla öz müşküllüklərini sanki torpağa tapşırıb "ölüb yenidən dirilirdilər". Bu adəti sonralar da böyüklər icra edirdilər, xüsusən el arasında yanlışlıqlara yol verənləri, yolunu azanları torpaqdan halallıq almaq və islah olunmaq məqsədilə həmin çilləxanalardan keçirərdilər. Vaxtilə Torpaq çərşənbəsində "Cütçü şumu", yaxud "Əkin toyu", "Səpin toyu", "Torpaqbasdı", "Xız-kotan bayramı" adlanan böyük bir mərasim keçirilərdi. Mərasimin baş qəhrəmanı Cütçü baba, yaxud "Gilbaba", "Turab baba" idi. Rəvayətə görə, Cütçü baba ilk dəfə insanlara taxıl əkib-biçməyi öyrədən övliya, müqəddəs adam hesab edilib. Bu mərasimdə Cütçü baba vəzifəsini yerinə yetirmək üçün elin hörmətli, uzunömürlü ağsaqqalı seçilərdi.

Ulularımız torpağın oyanmasını şən mərasimlər, nəğmələr, ayinlərlə qarşılayıblar. Onlar hər zaman torpağı əzizləyib, "Torpaq haqqı", "Yer haqqı" deyə ona and içiblər. "Torpağın bərəkətli olsun" duası ilə bir-birlərinə alqış ediblər. Babalarımız torpağın bərəkətinə güvəniblər. Axır çərşənbədə yeni əkiləcək torpaq sahələrində kütləvi şənliklər keçirilərdi. İnsanlar sahələri təmizləyər, müxtəlif ayinlər, mərasimlər düzənləyərdilər. Axşam düşməyə başlayanda isə odla bağlı şənliklər icra olunardı. Digər üç çərşənbə kimi tonqallar qalanardı.

Bu çərşənbə Azərbaycanın bir çox bölgəsində Novruz bayramı qədər təmtəraqla qeyd olunur. Axır çərşənbə xonçası bəzədilir, Novruz bayramında olduğu kimi, mütləq bayram plovu bişirilir. Boz ayın sonuncu çərşənbəsi günü "çillə çıxarırlar".

Axır çərşənbədə küsülülər barışarlar. İnanırlar ki, bu çərşənbə gecəsində təbiətdə nə varsa, hamısı təzələnir. İlaxır çərşənbədə qulaq falı, qapı pusmaq, şal sallamaq və başqa adətlərə bu gün də əməl edirlər. Qaş qaralandan sonra niyyət edib qonşunun qapısına yaxınlaşır, eşitdikləri ilk sözlərə görə niyyətlərini yozurlar.

Axır çərşənbə axşamı gec yatırlar. Hamı deyib-gülür, şənlənir. Yatan olsa, üstünə su töküb, oyadırlar. Subaylar ertədən bişirdikləri duzlu kökəni yeyib su içmədən yatırlar. Su verən adam yuxu görənin qisməti sayılır.

Novruz bayramının sonuncu çərşənbəsində torpağın oyanması, təbiətin canlanması həm də yeni əkin mövsümünün yaxınlaşması deməkdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## ● Novruz ədəbiyyatda

### Boz ay

Gah bozarır, gah qızarır,
Gah qızarır, gah bozarır.
Günəş çıxır, tez də batır
Yazla Qışın arasında.
Hava meyxoş, hava sərin,
Qışla Yazın arasında.
Bu nə qışdır, bu nə yazdır?
Soyuq çoxdur, isti azdır.
Günəş doğur, bəs Günəşin,
O istisi harda qalıb?
O həniri, hərarəti,
Yoxsa ondan qışmı alıb?
Soyuq, şaxta yerə hopub
İşləmişdir iliyinə.
Şehlər dönüb qrov olub,
Səpələnib Yer üzünə!
Qar da, buz da yağış təkin,
Çisək təkin tez-tez yağır.
Qarı Nənə ətəyini
Bulud kimi tez-tez sıxır.
Qara bulud durulaşır,
Pambıq kimi dümağ olur.
Qara yağış - Ağ yağışa,
Yağa-yağa ürcah olur.
Quşlar damı hasarından
Yuvasını sökür daha.
Ağacların kəlləsində
Yeni yuva tikir daha.
Qonur köhnə ovlağına.
Sanki çıxır yaylağına.
Hamı yaza hazırlaşır,
Sığırçınlar qaqqıldaşır.
Durna köçü səmt götürür.
Karvan çəkib köhnə yurda!
Bülbüllər də tez-tez ötür
O qoruqda, bu qoruqda.
Boz Ay dönüb qızardıqca
Boz bülbüllər sarı olur.
İlk çiçəyi qoxlayan da
Bal toplayan arı olur!
Boz Ay Qışı sıxışdırır,
Yaza yeni yollar açır!
Qışdan sonra gələn Yaza
Çöllər geniş qollar açır.
Xonça tutub el-obalar,
Sanki Yazı izləyirmiş.
Düzlər boyu xalı sərmiş,
Sanki gəlin gözləyirmiş!

### Torpağa bax, torpağa

Torpağa bax, torpağa,
Sanki qalxır ayağa.
Buxarlanır nəfəsi,
Oyanıbdır həvəsi.
Qızıl öküz tərpənir,
Torpaq sanki dillənir:
Çəmənim harda qaldı?
Səmənim harda qaldı?
Getdi qarlı yorğanım,
Getdi çənim, dumanım!
Gəlsin xalı-xalçalar,
Yollar boyu yoncalar,
Qoy bağ olsun, əkin olsun,
Mənim ana qucağım!
Səpin olsun, biçin olsun,
Gülsün hər bir bucağım!..

***Əhməd CAVAD***

## ● Adətlər və inanclar

### Novruz elçiliyi



Novruz elçiliyi məişət mərasimlərimizin ən məşhuru olan toyun başlanğıc mərhələsidir. Toy mərasimi və onun başlanğıc mərhələsinin zaman məhdudluğu yoxdur. Bununla belə, Novruzqabağı günlərdə elçiliyə getmək həmişə düşərli bilinmişdir. Elə zənn edilir ki, bu zaman elçiliyə getmək, qız almaq gələcəkdə qurulacaq ailəyə xoşbəxtlik gətirər, ev-eşikdə söz-sov olmaz. Xalq arasında "Novruz elçisinə zaval yoxdur", "Novruz elçisinə yox deməzlər", "Novruz elçisinin ayağı sayalı olar" və s. kimi deyimlər bu səbəbdən geniş yayılmışdır.

Elçiliyə getməzdən öncə, oğlan evinin adamları istəyəcəkləri qızın nəsil-nəcabəti haqqında sorağa çıxır. Alacaqları qızın soy-kökünü öyrənirlər.

Elçiliyə oğlan evindən əvvəlcə qadınlar gedir. Məsələdən xəbərdar olan qız evi də oğlanın nəsil-nəcabətini öyrənir. Aralıqda razılıq yaranandan sonra məsələnin - elçiliyin vacib mərhələsi ağsaqqalların üzərinə düşür. Oğlan nəslinin ağsaqqalları elçiliyə gedir. Onları da qız nəslinin ağsaqqalları qarşılayır. Məsləhət-məşvərətdən sonra razılıq cavabı məclisə verilən şərbətlə, şirin çayla bəllileşir.

### Əkin ayı

Yazın gözü açılan kimi bərəkətin, bolluğun təməli qoyulur. Əkinçi ömrünün, əkinçi həyatının ən məsul dövrü başlanır. Əkinçilərin, bağbanların qayğıları artır. Torpağı əkib-becərirlər. Əkin işlərinin başlanması çal-çağırla qeyd edilir, həmin gün bayrama çevrilir. Tarlaya çıxdıqları, əkinə başladıqları gün uca təpələrdə tonqallar çatır, hamını halal zəhmətə, torpağı laləzara çevirməyə səsləyir, bir-birinə məhsul bolluğu arzulayırlar.

Ulularımızın hər qarış torpaq uğrunda yağılar-yamanlar önündə əyilməz başı bərəkət qoxulu torpağın önündə əyilib. Yüz illər boyu onlar torpaqdan qədir-qiymətlə, səxavətlə bəhrələniblər, torpağın becərilməsinə qayğı ilə yanaşıblar, torpağın "qaralt üzümü, ağardım üzünü" şərtinə həmişə əməl ediblər, torpağı şöhrətləndiriblər.

Torpaq da ki, qulluq istəyir, gündə yüz yol başına dolansan darda, əlamanda qoymaz səni, ocağından köz əskik olmaz, bucağından bərəkət. Torpaq da sanki dilə gəlib üzünü əkinçilərə tutaraq "Hə, bu mən, bu da sən, qaralt üzümü, ağardım üzünü", "Səndən hərəkət, məndən bərəkət", "Doyurt məni, doyurum səni" deyər. Çünki torpaq səxavətlidir, çəkilən zəhməti itirmir, qayğısını çəkəni heç vaxt nagüman qoymur, onu cana gətirənlərə, ondan düzgün, qaydasınca, insafla istifadə edənlərə öz varını əsirgəmir.

Müdrik babalar da varını, nemətini qayğı göstərənlərdən əsirgəməyən torpağa baxıb fərəhlənmiş, - "bərəkətinə, bəhərinə, çörəyinə qurban, a torpaq, qədrini bilməyənə lənət" - demişlər.

# Naxçıvanda keçirilən komanda-qərargah təlimi başa çatıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən komanda-qərargah təlimi başa çatıb.



Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, təlimə ümumqoşun birləşmə və hissələrinin qərargahları ilə birgə gücləndirmə vasitə və qüvvələrinin əməliyyat qrupları da cəlb edilib.

Təlimdə qərargahlar tərəfindən yeni döyüş təlimatlarının müddəalarının tələblərinə uyğun hesablamalar aparılaraq qəbul olunan qərarlara əsasən praktiki fəaliyyətlərə cəlb edilən qüvvələrin fəaliyyətləri qiymətləndirilib. Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı aviasiya və raket-artilleriya zərbələrinin endirilməsi üçün müvafiq bölmələrin çağırılması və ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktiki olaraq məşq etdirilib.

Ümumqoşun, raket-artilleriya, hava hücumundan müdafiə və digər qoşun növü bölmələrinin məhdudgörmə şəraitində yerdəyişməsi həyata keçirilib, bir istiqamətdən digərinə hərəkət zamanı manevretmə qabiliyyətləri və aparılan hesabatların reallığı yoxlanılıb.

Komanda-qərargah təliminin sonuncu mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində hər iki tərəfin fəaliyyəti, qərarların və apardıqları hesablamaların reallığı kompüterlər üzərində keçirilən təlimdə qiymətləndirilib.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılan zaman qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib, təlimə cəlb olunan birləşmə və hissələrin komandir və qərargahlarının fəaliyyətləri qiymətləndirilərək aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində tapşırıqlar verilib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqepar, Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# *XİN:* "Ermənistanın tarix və demokratiya məsələlərində Azərbaycana qarşı iddia irəli sürməyə heç bir əsası yoxdur"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in yenidən tarix və demokratiya məsələlərində Azərbaycana qarşı ittihamlarla bağlı açıqlamasına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva deyib: "Ermənistan tərəfinin tarix və demokratiya məsələlərində Azərbaycana qarşı hər hansı iddia irəli sürməyə heç bir əsası yoxdur. Bu, utanmazlığın və ikiüzlülüyün yüksək həddidir. Silahlı təcavüz və qanlı etnik təmizləmə həyata keçirərək on illər boyunca Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin beşdəbirini işğal altında saxlayan, vicdanında Xocalı qətliamı da daxil olmaqla, on minlərlə günahsız mülki şəxsin ölümü və yüzminlərlə insanın viran edilmiş taleyi olan, öz evlərindən zorla didərgin salınmış insanların doğma torpaqlarına geri qayıtmalarına imkan verməyən bir ölkənin demokratiya və insan hüquqlarından danışmağa nə mənəvi, nə də hüquqi əsası var. Ermənistanın beynəlxalq humanitar hüququn əsas normalarını və çoxsaylı beynəlxalq öhdəliklərini kobud şəkildə pozduğu, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin yerinə yetirilməsinin vacibliyi beynəlxalq ictimaiyyətə yaxşı bəllidir.

Ermənistan XİN-in bizi hörmətcil tonun olmamasında ittiham etməyə cəhd göstərməsinə gəldikdə isə vurğulamaq istərdik ki, qarşı tərəfdə hörmətə layiq və ciddi subyekt olduğu təqdirdə tonumuz da hörmətcil olacaq".


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

***açıq tender elan edir***

DOST Agentliyi üçün pikap tipli avtonəqliyyat vasitəsinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *rəsmi nümayəndəliyin olmasını təsdiq edən sənəd;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.04.2020-ci il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20.04.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.04.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankı
### *tender elan edir*

Azərbaycan Respublikası Mərkəzi Bankında informasiya və kiber təhlükəsizliyin gücləndirilməsi məqsədilə avadanlıqların alınması və quraşdırılaraq fəaliyyətdə olan informasiya sistemlərinə inteqrasiyası ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirilir.

Tender proseduru 22 aprel 2020-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet Portalında (**https://etender.gov.az/**) (bundan sonra Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod:** **501004**
**VÖEN:** **9900071001**
**Hesab:** **AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı:** **AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK** **NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 9 iyun 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının təklif olunan malların satılmasına müvəkkil edildiyini təsdiq edən Avtorizasiya forması (Manufacturer Authorization Form);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **22 aprel 2020-ci il saat 14:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **13 aprel 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların və xidmətin təqdim edilməsi müddəti və zəmanət müddəti:
- *Malların təqdim edilməsi və işlərin görülməsi satınalma müqaviləsi imzalandığı gündən 6 (altı) ay müddətində;*
- *Təklif olunan mallara və görüləcək işlərə zəmanət ən azı 1 (bir) il müddətinə.*

Qiymətləndirmə meyarları: qiymət və zəmanət müddəti.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
### *tender elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri Az 1022, S. Vurğun küçəsi, 135**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında yanğına qarşı mühafizə sistemlərinin (avtomatik və su ilə söndürmə sistemləri) 2020-ci il ərzində texniki xidmətlərinin satın alınması.
2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında 7 ədəd liftə 2020-ci il ərzində texniki xidmətlərin satın alınması.
3. Nazirliyin rəsmi saytında məlumatlar, press-relizlər, dövlət büdcəsi ilə bağlı qanunlar və digər materialların ingilis dilinə tərcüməsi xidmətinin, nazirliyin konfrans və tədbirlərində foto, video xidmətinin satın alınması.

**Göstərilən 3 təyinat üzrə açıq tender üçün iştirak haqları elektron Portalda həmin LOT üzrə səhifədə göstərilmişdir.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müvafiq LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:**
**A1.** Benefisiar (alan) bank
**Adı** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. BIK: CTREAZ22**
**B2.** Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi
**Hesab №-si AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7,**
**Büdcə təsnifat kodu - 142330.**
**VÖEN: 1400108191**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı verilməlidir və təminat tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır.*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda həmin tender LOT-u üzrə təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda hər LOT üçün təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və bütün digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "Sair torpaq, tikili və avadanlıqlar" təsnifatı üzrə inventarların satın alınması məqsədilə elan edilən kotirovka sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 6.2.1-ci və 27.4-cü maddələrinə əsasən Tender komissiyasının 13 mart 2020-ci il tarixli qərarı ilə ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" ASC tərəfindən Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodu üçün avadanlıqların satın alınması məqsədilə keçirilən açıq tenderdə Tender komissiyasının 10 mart 2020-ci il tarixli yekun protokoluna əsasən "BUTA SUPPLY" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**"Bakı Telefon Rabitəsi" MMC-nin daxili vəsaiti hesabına bir illik outstaffing xidmətlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 450 (dörd yüz əlli) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesabı: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **15 aprel 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
- *digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **22 aprel 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **23 aprel 2020-cu il saat 11:00-da** dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az Dövlət satınalmalarının vahid internet portalında aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti
### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dəftərxana və təsərrüfat mallarının satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.04.2020-ci il saat 15:00-a** qədər və tender təklifini **20.04.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.04.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və bütün digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci ilin 1-ci rübü üçün
### *kotirovka sorğusu elan edir*

Kompüter tomoqrafiyası avadanlığının ilkin texniki baxışı və mövcud nasazlığın təmiri.
Kotirovka sorğusu üzrə müraciətlər 18.03.2020-ci il saat 13:00-dək qəbul edilir.
Zərflərin açılması: 18.03.2020-ci il saat 14:00

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon nömrəsi: +994555004599 ; +994552041520**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

12.02.2020-ci il tarixdə EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorların satın alınması üzrə keçirilən tender, Dövlət satınalmaları haqqında qanunun 50-4.2-ci maddəsinə əsasən elektron satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) yetərli sayı olmadığı üçün ləğv edilmişdir.

12.02.2020-ci il tarixdə stansiya akkumulyatorları və UPS-lərin satın alınması üzrə keçirilən tender, Dövlət satınalmaları haqqında qanunun 50-4.2-ci maddəsinə əsasən elektron satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) yetərli sayı olmadığı üçün ləğv edilmişdir.

***Tender komissiyası***

## Ruhani dünya liderlərinə müraciət etdi

İran Prezidenti Həsən Ruhani dünya liderlərinə üz tutaraq ABŞ-ın ölkəsinə qarşı sanksiyalarına riayət etməməyə çağırmışdır. Bu barədə TRT telekanalı xəbər verir.

İran Prezidenti aparatının yaydığı bəyanatda deyilir ki, Ruhani dünya liderlərinə ünvanladığı məktubunda koronavirusla mübarizədə regional və qlobal əməkdaşlığın zəruriliyini vurğulamışdır. O qeyd etmişdir ki, koronavirus təhlükəsi böyük bəladır və heç bir ölkə onun öhdəsindən təkbaşına gələ bilməyəcək.

ABŞ İrana qarşı sanksiyalar çərçivəsində 100 müxtəlif tədbir görmüş, 1200-ə yaxın İran vətəndaşını və təşkilatını sanksiya siyahısına daxil etmişdir.

Ruhani dünya liderlərini səhiyyə sahəsində əməkdaşlığa dair müqavilələri reallaşdırmağa çağırmışdır. O bildirmişdir ki, sanksiyalar İran iqtisadiyyatına 200 milyard dollarlıq ziyan vurmuşdur. Ruhani vurğulamışdır ki, Vaşinqtonun bu hərəkətləri beynəlxalq sazişlərə və insanlıq prinsiplərinə ziddir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

### ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Fuad Babayevə atası

**FİKRƏT BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6955
Sifariş 927
Qiyməti 40 qəpik